QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 179 (6379) 2 oktyabr 2021-ci il **Qiyməti 40 qəpik** "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Zəfər tarixini yazan qalib lider!



Bax 4

## "Azərbaycanın sözünün imzası qədər əhəmiyyəti vardır"



## Erməni keşişin yalanları ifşa olundu!

İtaliyada dini çevrələrə bağlı olan "Riforma.it" qəzetində dərc olunmuş Böyük Britaniya və İrlandiyanın erməni kilsəsinin primatı, yepiskop Hovakim Manukyanun Azərbaycana qarşı yalan iddialarına




Bax 8

## USAİD Azərbaycanı saymır və ərazi bütövlüyünü şübhə altına alır!




Bax 13

## Rəsmi xronika

Prezident İlham Əliyev Bakı şəhəri Suraxanı rayonunun Zığ-Hövsan avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

## "Dövlət Proqramı il ərzində 300-400 nəfəri əhatə edəcək"



Bax 6

Xaricdə təhsillə əlaqəli daha çox texniki və texnoloji sahələrə, fundamental elmlərə üstünlük veriləcək. Bunu təhsil naziri Emin Əmrullayev Prezident İlham Əliyevin "Azərbaycan gənclərinin nüfuzlu xaric...

Bax 9



## Andrey Korıbko: "Ermənistan Azərbaycanı provakasiyaya çəkən regional destabilizatordur"

*Amerikalı politoloq Andrey Korıbko "Caliber" analitik mərkəzinə müsahibəsində Qafqazdakı mövcud geosiyasi vəziyyət və gedən proseslər haqda fikirlərini bildirib. Müsahibəni təqdim edirik.*

## "Makron Ermənistanı dəstəkləmək istəyirdi. O nə əldə etdi? Heç nə"



ABŞ və Qərb koalisiyası Əfqanıstanı tərk etdikdən sonra bir çox ekspert Qərbin postsovet məkanında fəallığının zəifləyəcəyini proqnozlaşdırdı. Amma bu, hər-halda Cənubi Qafqazda baş...

Bax 11

Bax 10



## "Şəhadətə qovuşan oğullarımızı bütün Azərbaycan tanıyır"

*"Şəhidlər ölməz, vətən bölünməz", - deyiblər. Müdrik ifadədir. Torpağı bölünməyə qoymayan igid, ərən oğullarımız var və heç zaman Odlar Diyarı parçalanmaz, yağının işğalında qalmaz.*




## Ərdoğan-Putin görüşündəki Qarabağ mesajı - Zəngəzur dəhlizi nə vaxt açılır?




## Xankəndinə qayıdış planı təsdiqləndi - Paşinyan sülhə imza atmağa hazırlaşır

## Bu ünsürlər heç vaxt dövlətçiliyimizin yanında olmayıblar!



Bax 14

## Napoleonun öldüyü otağın açarı 112 min ABŞ dollarına satıldı



Bax 16

## "Qalatasaray" bir xal qazanıb lider oldu, "Fənərbaxça" uduzdu



Bax 16

# Zəfər tarixini yazan qalib lider!



Ölkə rəhbərlərinin liderlik keyfiyyətləri adətən onların uğurlu siyasəti, uzaqgörənliyi, müdrikliyi, təkcə hərb meydanında deyil, həmçinin diplomatik müstəvidə də qələbələri ilə xarakterizə olunur. Bu baxımdan, sözün həqiqi mənasında, Azərbaycan şanslı ölkədir ki, cənab Ali Baş Komandan, Prezident İlham Əliyev kimi yüksək liderlik keyfiyyətlərinə sahib, hər zaman qalib olan rəhbəri var.

Dünya mətbuatında cənab Prezidentin müsahibələrinin, daha dəqiq desək, informasiya cəbhəsində də qələbələrinin təkcə vətəndaşlarımız deyil, bütün dünya ictimaiyyəti şahididir. İstər müharibədən əvvəlki dönəmdə, istər ikinci Qarabağ müharibəsi dönəmində, istərsə də müharibədən sonrkı dövrdə cənab Ali Baş Komandanın dünya mətbuatına müsahibələri hər bir Azərbaycan vətəndaşında qürur hissi doğurur. Çünki bu müsahibələrin hər birində ölkə başçısı milli maraqlardan, dövlət maraqlarından, xalqın mənafeyindən çıxış edərək, Azərbaycan həqiqətlərini, haqlı, ədalətli mövqeyimizi bütün dünyaya məharətlə bəyan edib və bunu hər kəs etiraf edir.

Bir neçə gün öncə Rusiyanın "Nasionalnaya oborona" jurnalına cənab Prezidentin müsahibəsi zamanı bir sıra məqamlar diqqətdən heç cür yayına bilməzdi. Belə ki, ölkə rəhbərinə sual ünvanlanarkən, ilk öncə onun nə dərəcədə sakit, təmkinli və eyni zamanda, inamlı olmağını hamının gördüyü vurğulanır. Həmçinin dövlət rəhbərimizin qətiyyəti, inamı və təmkinliyi, ədalətli olması etiraf edilir. Bütün bunlar, bu fikirlər Azərbaycan Prezidentinə, Ali Baş Komandana inamın, verilən yüksək qiymətin təzahürü idi və suallardan da görünür ki, mübarizəmizdə haqlı olduğumuz artıq beynəlxalq ictimaiyyət, ələlxüsus Rusiya cəmiyyəti tərəfindən ilk əvvəldən də qəbul edilirdi, elə indi də qəbul edilir və bu məsələdə ölkə başçısının, onun informasiya savaşında, diplomatik müstəvidə qələbələri ilə birbaşa əlaqədardır.

"Müharibənin informasiya tərkib hissəsi hərbi tərkib hissədən heç də az əhəmiyyət kəsb etmir. Biz erməni təbliğat maşınının necə işlədiyini, Azərbaycanın necə cavab verdiyini gördük. "Rossiya" telekanalının "60 dəqiqə" proqramının efirə çıxdığı gün Siz də çıxış etdiniz, Paşinyan da, lakin Sizin çıxışınız siyasi zəfər, informasiya savaşında zəfər idi və bunu çoxları gördü, şahidi oldu ki, Siz öz mövqeyinizi son dərəcə sərrast, sakit, polad məntiqlə şərh etdiniz. Həm Azərbaycan, həm də cənab Prezident, şəxsən Siz müasir diplomatiya nümunələri, bəlkə də müasir diplomatiya tarixinə düşəcək nümunələr göstərdiniz", deyə açıq-şəkildə etiraf edilir.

"Mən bütün müraciətlərə cavab verməyə razılaşırdım, çünki vəziyyət barədə həqiqəti - nələr baş verdiyini, münaqişənin səbəblərinin nədən ibarət olduğunu, kimin işğalçı və kimin işğal qurbanı olduğu barədə həqiqəti mümkün qədər çox ölkənin ictimaiyyətinin diqqətinə çatdırmağı vacib hesab edirdim", deməklə cənab Prezident yenə də haqlı mübarizə apardığımızı xatırlatdı və bir daha ədalətin bərpası uğrunda mücadilə edildiyinə əminliyini ifadə etdi.

"Bizim həqiqəti çatdırmağımız, əlbəttə, çox çətin idi, çünki bizim media resurslarımız ermənilərin müvafiq resursları ilə müqayisə edilə bilməzdi. Münaqişə medianın diqqətini cəlb etdi və mən nələr baş verməsi barədə həqiqəti çatdırmaq üçün bu imkandan istifadə etdim", deyən Ali Baş Komandanın yenə də həqiqətlərin, Azərbaycan həqiqətlərinin, Azərbaycanın haqlı olduğunun dünyaya çatdırılmasını müqəddəs vəzifə saydığı öz isbatını tapır.

"44 günlük müharibə bu gün dünyanın aparıcı ölkələrinin baş qərargahlarında öyrənilir. Dünya səviyyəli hərbi ekspertlərin çoxu onu, ilk növbədə, dronlar müharibəsi adlandırırlar. Bu, XXI əsrin müharibəsi idi, bu münaqişəyə qədər istər Amerika Birləşmiş Ştatlarının, istərsə də hətta İsrailin bu cür yüksək texnoloji, uğurlu, səmərəli müharibə təcrübəsi yox idi", deyə müsahibə zamanı cənab Prezidentə müraciət olunması Rusiya ictimai fikrinin nədən ibarət olduğunu, ölkə başçısının, Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın apardığı müharibənin dünya təcrübəsində bir ilk olduğunu, bəyənildiyini göstərir. Onu göstərir ki, dünyanın aparıcı ölkələrinin baş qərargahlarında Azərbaycan nümunəsi, təcrübəsi öyrənilir və bundan bütün dünya da xəbərdardır. Bütün bunlar isə ölkəmizin qüdrəti, şəxsən Prezident İlham Əliyevin Ali Baş Komandan, qətiyyətli, səriştəli sərkərdə kimi layiqli rəhbər olduğu barədə etiraflardır.

Suallardan da aydın görünür ki, əks-hücum əməliyyatının aparılması zamanı qarşıya qoyulan vəzifələrdən biri də dinc əhali arasında itkiləri minimallaşdırmaq, istisna etmək olduğu qəbul edilir, buna inanılır və müharibəni beynəlxalq hüquq, müvafiq konvensiyalar, əlbəttə, məhz hərbi hədəflərin məhv edilməsi əsasında aparmaq vəzifəsinin qarşıya qoyulduğu da təkzib edilmir. Həmçinin müharibədən sonra işğaldan azad edilmiş ərazilərdə quruculuq, abadlıq işlərinin görülməsi, infrastrukturun bərpa edilməsi, Füzulidə beynəlxalq aeroportun tikilməsi, özü də görülən bu işlərin sürətinə heyrət hissi belə gizlədilmir. Azərbaycanın Cənubi Qafqazda sülhün, təhlükəsizliyin təminatçısı olduğu da birmənalı şəkildə qəbul edildiyi dilə gətirilir. Mədəni, tarixi abidələrin, mədəni irsin, memarlıq incilərinin bərpasına xüsusilə diqqət yetirildiyi də, suallardan aydın olur. Hətta ən sonda, "Siz Azərbaycanın rəhbəri kimi siyasət səmasında ən parlaq ulduz sayılan siyasi xadimsiniz", deməklə, Ali Baş Komandanın böyük siyasi xadim olduğuna inam açıq-aşkar bildirilir və bu da göstərir ki, Azərbaycanın dövlət başçısı, onun fəaliyyəti təkcə ölkə daxilində deyil, ölkə hüdudlarından kənarda, bütün dünyada yüksək qiymətləndirilir.

Cənab Prezidentin Anadolu Agentliyinə müsahibəsi zamanı isə görürük ki, bu müharibə olmadan, itkilər verilmədən, yəni ATƏT-in Minsk Qrupunun həmsədrlərinin münaqişəyə zamanında ədalətli, düzgün yanaşması, işğal edən tərəfi, Ermənistanı sanksiyalarla doğru istiqamətdə addım atmağa, işğal etdiyi torpaqları müharibə olmadan geri qaytarmağa vadar etməyin mümkünlüyü barədə suallar verilir və əslində, suallardan da görünür ki, bunun bir həqiqət olduğu qəbul edilir. Cənab Prezident də öz növbəsində təsdiq edir ki, həqiqətən də ATƏT-in Minsk Qrupu torpaqların işğalda saxlanıldığı 30 il ərzində ikili standartlarla deyil, Ermənistanın tərəfini tutmaq, bu münaqişənin uzanmasına çalışmaqla deyil, ədalətli həllinə səy göstərməklə müharibə olmadan, itkilər verilmədən münaqişə həll oluna, ermənilər işğal altında saxladıqları torpaqları tərk edə, məsələ də bununla bitə bilərdi. Amma əfsuslar olsun ki, həqiqətən də, ATƏT-in Minsk Qrupu az qala 30 il ərzində bu münaqişəyə dırnaqarası yanaşdı, həmsədrlər daim ermənilərə tərəfkeşlik etdi, münaqişənin uzanmasına şərait yaratdılar, əslində, məsələnin həlli ilə bağlı səy belə göstərmədilər, baxmayaraq ki, indi atılıb ortaya düşüb bölgədə Azərbaycanın öz gücünə yaratdığı stabilliyi, sakitliyi pozmağa çalışırlar. Bəli, cənab Prezident də onlara kifayət qədər mesajlar verdi və bildirdi ki, heç kim, heç bir həmsədr bölgədəki vəziyyəti dəyişmək iqtidarında deyil, buna imkan da verilməyəcək.

Əslində, bütün müsahibələrində olduğu kim,i bu müsahibəsində də Ali Baş Komandan, cənab Prezident Azərbaycanın bu ədalətli mövqeyindən geri çəkilməyəcək qətiyyətli mövqeyini nəinki Minsk Qrupu həmsədrlərinə, eləcə də bütün dünyaya, ələlxüsus, Ermənistana və onun bütün havadarlarına bəyan elədi. Bu da sözsüz ki, informasiya savaşında da qələbə deməkdir və təsdiq edir ki, ölkə başçısı həqiqətən uzaqgörən, müdrik, bacarıqlı siyasətçi, qətiyyətli rəhbər, dünyəvi liderdir, zəfər tarixini yazan qalib lider.

Son günlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin digər bir müsahibəsi, Fransaya məxsus olan "France-24" kanalına verdiyi müsahibəsi də beynəlxalq ictimaiyyətin diqqətini cəlb etməyə bilməzdi. Daha dəqiq desək, Fransaya məxsus mətbuat səhifəsinin provokativ suallarına ölkə başçısnın qətiyyətli, məntiqi, doğru, dürüst, səlis, tutarlı, arqumentlərlə dolu cavabı və yenə də ədalətli mövqeyi Ali Baş Komandanın bu dəfə də işğalçı tərəf, onların havadarları üzərində diplomatik qələbəsi, informasiya cəbhəsində qalibiyyəti idi.

Fransaya məxsus olan kanalın ölkə başçısına ünvanladığı sualların belə qərəzli olduğu dərhal hiss olunurdu. Məsələn, dövlət başçımızım, "Əgər biz erməni faşizminin bir daha baş qaldırdığını görsək, yeni təhlükə görsək, heç bir tərəddüd etmədən erməni faşizmini yenidən əzəcəyik", sözlərinə istinadə edərək, "bu, sülh mesajı kimi səslənmir, elə deyilmi?", sualının ünvanlaması da təsdiq edir ki, Fransaya məxsus olan "France-24" kanalı da təmsil etdiyi dövlətin ermənilərə tərəf olan nümayəndələri, erməni icmasının təsirinə məruz qalanların haqsız olan mövqelərini müdafiə etməsi, yenə də qərəzin bir nümunəsi kimi xarakterizə edilə bilər. Amma, cənab Prezident bu ölkənin mətbuat səhifəsinə də çox tutarlı cavablar verərək, onlara da həqiqətin kimin tərəfində olduğunu, bizim mücadiləmizin haqlı, ədalətli mücadilə, mübarizə olduğunu bir daha xatırladıb. Hətta Ali Baş Komandan Fransanın ikinci Qarabağ müharibəsi dönəmində, müharibə bitdikdən sonra da ədalətsiz yanaşması və mövqeyi barədə də xatırlatmalar edib.

Göründüyü kimi, ölkə başçısına, "Sizin bəyanatlarınız olub ki, Ermənistanın paytaxtı İrəvan qədim Azərbaycan torpağıdır və Ermənistanın özünün hesab etdiyi ərazilərlə bağlı hər hansı iddianız varmı", sualı özü də təxribatçı sual idi və bir növ Azərbaycanı da ərazi iddiaları olan ölkəyə, Ermənistana tay tutmaq, bərabər etmək niyyəti güdülürdü. Amma, Ali Baş Komandan çox qətiyyətli və məntiqi şəkildə başa saldı ki, bizim ərazi iddiamız yoxdur və 101 il bundan əvvəl, düz 1920-ci ildə sovet hakimiyyətinin Zəngəzuru Azərbaycandan qopararaq Ermənistana birləşdirilməsi ilə bağlı qərar qəbul edibsə də, bu nə həmin ərazilərin Ermənistana məxsus olması deməkdir, nə də o torpaqlara getmək istəyimiz, niyyətimiz ərazi iddiası demək deyil.

Digər tərəfdən "France-24" kanalı Qarabağa muxtariyyət verilib-verilməyəcəyi barədə soruşmaqla da yenə öz mövqeyini, Ermənistana tərəf olduğunu büruzə verir. Məsələn, münaqişənin öz həllini tapması barədə cənab Prezidentin fikirlərini xatırladan sözügedən kanal illər ərzində bu münaqişəyə vasitəçilik edən bir sıra ölkələrin, məsələnin həll edilmədiyi qənaətində olduğunu xatırlatması özü də Fransanın, onun "France-24" telekanalının mövqeyini ifşa etmiş oldu. Lakin cənab İlham Əliyev bu yanaşmaya da tutarlı cavab verməyi bacardı və hətta "Öz ərazilərində erməniləri yerləşdirmək və öz ərazilərində ikinci Ermənistan dövləti yaratmaq üzərində düşünsünlər", deyərək çox məntiqi tövsiyələr də ünvanladı.

Müsahibə əsnasında ölkə başçısı ümumilikdə Fransa barəsində elə həmin ölkənin "France-24" kanalına cəsarətlə öz iradlarını bildirdi. "Bizim Fransa ilə Ermənistanın tarixi əlaqələrindən, Fransada fəal erməni icmasının olmasından və onların qərar qəbul edən şəxslərə mümkün təsirindən xəbərimiz var. Ancaq səmimi desəm, müharibə zamanı Fransa özünü dürüst vasitəçi kimi aparmadı. Fransa tərəf seçdi - Ermənistanın tərəfini", deyən cənab Prezident çox qəti şəkildə ümumilikdə Fransanın ədalətsiz yanaşmasına diplomatik tərzdə etirazını bildirdi.

Ümumiyyətlə, Prezidentimizin hər dəfəki müsahibəsində milli, mənəvi dəyərlərimiz, xalqımızın haqlı mənafelərinin müdafiəsi, dövlətimizin mövqeyinin qorunması öz əksini tapır və ön planda durur. Bu isə sözün əsl mənasında məhz Ali Baş Komandana, prezidentə, siyasi xadimə xas olan ən böyük liderlik keyfiyyətləridir.

Dünyanın bir çox mətbuat səhifələrinə cənab Prezidentin müsahibələri zamanı aydın şəkildə bəlli olar ki, Azərbaycan Prezidentini dünya ictimaiyyəti qətiyyətli, uzaqgörən, müdrik, liderlik keyfiyyətlərinə malik ölkə rəhbəri olaraq tanıyır. Eyni zamanda, dünyanın tanınmış mətbuat səhifələrinin Azərbaycan Prezidentindən müsahibə almaq istəyi, marağı isə öz növbəsində Ali Baş Komandana, onun liderlik keyfiyyətlərinə verilən böyük qiymətin, ona olan inamın təzahürüdür. Bu, yəni dünyada ən tanınmış mətbuat səhifələrinin bir-birinin ardınca müsahibə götürməsi həm də ondan xəbər verir, eləcə də təsdiq edir ki, ölkə başçısının, Azərbaycan Prezidentinin qələbə, zəfər tarixini yazan qalib lider olduğu hər kəsə bəllidir.

***İnam Hacıyev***

# Misir portalı: “Ermənistan atəşkəs elan edilməsi üçün Rusiyaya yalvararaq müraciət edirdi”



*Misirin "Yeni dünya xəbərləri" informasiya portalında 44 günlük müharibə zamanı Ermənistan rəhbərliyinin təcavüzkar və təzadlı siyasəti haqqında məqalə yayımlanıb.*

AZƏRTAC xəbər verir ki, yazıda işğalçı Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq əks-hücum əməliyyatına başlayan Azərbaycanın sülhyönümlü diplomatik iradəsindən, rəsmi Yerevanın isə hər dəfə humanitar razılaşmaları pozmasından bəhs edilir.

Məqalədə diqqətə çatdırılır ki, müharibənin gedişində - ötən il oktyabrın 10-da Azərbaycan Ordusu torpaqları azad etdiyi vaxtda Ermənistan atəşkəsə elan edilməsi üçün Rusiyaya yalvararaq müraciət edirdi. Həmin gün Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirlərinin görüşü keçirildi və humanitar atəşkəs məsələsi müzakirə olundu. Lakin erməni silahlı qüvvələri bu razılaşmaya əməl etmədi və Azərbaycanın ikinci böyük şəhəri Gəncəyə raket zərbələri endirdi. Nəticədə 10 mülki şəxs həlak oldu, 34 nəfər yaralandı. Oktyabrın 17-də gecə saatlarında Ermənistan bu şəhərə yenidən ballistik raket atdı, azyaşlılar da daxil olmaqla, 12 dinc sakini qətlə yetirdi, 40 nəfəri yaraladı. İşğalçı dövlətin bu hücumları beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması və insanlıq əleyhinə cinayət idi. İkinci dəfə - oktyabrın 18-də Fransanın vasitəçiliyi ilə elan olunmuş humanitar atəşkəs də Ermənistan tərəfindən elə ilk dəqiqələrdə pozuldu. Yenə Azərbaycan şəhərləri - Gəncə, Tərtər, Ağdam, Goranboy, Xızı və Ağcabədi raket və bomba hücumuna məruz qaldı, çoxlu sayda mülki şəxs həlak oldu. Nəhayət, üçüncü dəfə ABŞ-ın vasitəçiliyi ilə oktyabrın 25-də elan edilən humanitar atəşkəs də ermənilərin xain xisləti nəticəsində pozuldu. Ermənistan ordusu bu dəfə Azərbaycanın Bərdə şəhərinə ”Smerç” raket sistemi ilə hücum etdi və 21 mülki şəxsi qətlə yetirdi.

Yazıda qeyd olunur ki, bütün bu faktlar Ermənistan dövlətinin terrorçu mahiyyətini göstərir. Müharibədə məğlubiyyətə uğradığını görən işğalçı ölkə vəziyyəti daha da gərginləşdirmək və üçüncü dövlətləri münaqişəyə cəlb etmək istəyirdi.

Sonda vurğulanır ki, Azərbaycan bu qeyri-insani əməllərin günahkarlarının beynəlxalq ədalət məhkəməsində cəzalandırılması üçün bütün tədbirləri görəcək. Ermənistanın hərbi əməliyyatlardan uzaqda yerləşən Azərbaycan şəhərlərinə atdığı raket və bombalar 90 mülki şəxsin həlak olmasına, 400-dən çox insanın yaralanmasına, 402 mülki tikilinin, o cümlədən 90 çoxmənzilli yaşayış binasının və 2243 fərdi evin dağılmasına səbəb olub. Bu, erməni vandalizminin bariz sübutudur.

# YAP Pirallahı rayon təşkilatının yeni sədri partiya aktivinə təqdim edilib



Oktyabrın 1-də Yeni Azərbaycan Partiyasının Pirallahı rayon təşkilatının yeni sədri Emil Abasov ərazi partiya təşkilatlarının sədrlərinin də iştirakı ilə keçirilən yığıncaqda yerli təşkilatın partiya aktivinə təqdim olunub. Əvvəlcə partiyanın qurucusu, ulu öndər Heydər Əliyevin abidəsinin önünə gül dəstələri düzülüb, Ümummilli Liderimizin xatirəsi ehtiramla yad edilib.



Tədbirdə çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ötən illər ərzində böyük inkişaf yolu keçdiyini bildirib. Məhz həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, Azərbaycan dünyanın sürətlə inkişaf edən ölkələri sırasındadır. Ötən il 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi isə Azərbaycanın regionda və dünyada mövqelərini daha da möhkəmləndirib.



Diqqətə çatdırılıb ki, hazırda partiyanın qarşısında yeni vəzifələr dayanır. Bu il martın 5-də keçirilən Yeni Azərbaycan Partiyasının VII Qurultayı və qurultayda qəbul olunmuş qərarlar partiyamızın inkişafında yeni mərhələnin əsasını təşkil edir. Qurultayda Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin proqram xarakterli nitqi, yeni nizamnamənin qəbul olunması və digər mühüm qərarlar gələcək fəaliyyətimiz üçün müstəsna əhəmiyyət kəsb edir.

Qeyd edilib ki, Yeni Azərbaycan Partiyasının ölkəmizin inkişafında xüsusi rolu var, YAP fəalları Prezident, partiyamızın Sədri cənab İlham Əliyevin siyasətinin uğurlarını ictimaiyyət arasında aktiv şəkildə təbliğ edirlər.

Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov tədbirdə çıxış edərək YAP Pirallahı rayon təşkilatının yeni sədrini təbrik edib. O, təşkilatın üzvlərinin rayonun ictimai-siyasi həyatında hər zaman fəal iştirak etdiyini söyləyib.

Çıxış edən YAP Pirallahı rayon təşkilatının yeni sədri Emil Abasov göstərilən etimada görə partiya rəhbərliyinə təşəkkürünü bildirib və bu etimadı layiqincə doğrultmağa çalışacağına söz verib.

Qeyd edək ki, tədbirdə rayon təşkilatının gələcək fəaliyyəti ilə bağlı qarşıda dayanan vəzifələrə dair müvafiq tövsiyələr verilib.

# Riçardas Lapaitis: Ermənistan öz çirkin siyasi oyunlarını apardığı zaman Azərbaycan yüksək texnologiyalarla müasir ordusunu yaradıb



Ermənistan öz çirkin siyasi oyunlarını apardığı zaman Azərbaycan yüksək texnologiyalarla müasir ordusunu yaradıb. Bunu Trend-ə litvalı hərbi jurnalist Riçardas Lapaitis deyib. O qeyd edib ki, 2020-ci il sentyabrın 27-i Azərbaycan tarixinə müasir dövrün ən vacib günü kimi düşüb:

”Dünyada dondurulmuş münaqişələrin həlli nümunələri çox azdır. İkinci Qarabağ müharibəsi ərəfəsində törədilən təxribatları, Ermənistanın baş naziri Nikol Paşinyanın Qarabağa qanunsuz səfərlərini onun təxribatçı çıxışlarını, Ermənistan tərəfindən atəşkəsin pozulması hallarını xatırlamaq lazımdır. ATƏT Minsk qrupu isə iş görmürdü və Ermənistanın bütün bu qanunsuzluqlarına göz yumurdu. Münaqişənin dinc yolla həlli üçün bütün vasitələr tükənmişdi”.

Onun sözlərinə görə, müharibə dövründə Azərbaycanın bir sıra şəhərlərinə raket zərbələri endirmiş Ermənistan öz həqiqi simasını göstərib:

”Ermənistanın fəaliyyəti terror xarakteri daşıyırdı. Amma ən əsası isə, erməni təxribatçılarının hər belə təxribatından sonra Azərbaycan ordusu daha böyük qətiyyətlə irəliləyirdi. Bununla heyrətlənməmək mümkün deyil. Bütün dünya nəfəsini tutaraq hadisələri izləyirdi və artıq başa düşürdü ki, hansı tərəf Vətənini müdafiə edir, hansı tərəf isə təcavüzkardır. Ermənistan öz çirkin siyasi oyunlarını apardığı zaman Azərbaycan yüksək texnologiyalarla müasir ordusunu yaradıb. Bu, silahların atıb döyüş meydanından qaçan erməni hərbçiləri üçün əsl sürpriz oldu. Azərbaycan əsgərlərinin döyüş əzmi o qədər yüksək idi ki, Ermənisanın kapitulyasiya edəcəyi şübhə doğurmurdu, və məhz 44 gündən sonra bu, baş verdi. Ermənistanın nüfuzu çökdü, Azərbaycanın nüfuzu isə gündən-gündən artır”.

Jurnalist bildirib ki, Azərbaycan rəhbərliyinin səmərəli siyasəti təxminən 30 illik işğal tarixinə nöqtə qoydu: ”Beləliklə, gələcək nəsillərin qarşısında tamamilə fərqli perspektivlər açıldı. Sabitlik və sülhün təminatı təkcə Azərbaycanın deyil, həm də qonşu ölkələrin, Gürcüstanın və sağlam düşüncəyə əməl edəcəyi təqdirdə Ermənistanın iqtisadiyyatlarının inkişafına güclü təkan verəcək”.

R.Lapaitis əlavə edib ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir: ”Mən bütün Azərbaycan xalqını Cənubi Qafqaza sülh gətirmiş qələbə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Biz Azərbaycan torpaqlarının işğalı müddətində törədilmiş erməni vandallığının fəsadlarını görürük. Ermənistan dinc həyat qurmağa hazırlaşmırdı, çünki bu torpaqlar heç vaxt onlara məxsus olmayıb. Mən Azərbaycanın gələcəyinə inanıram. Arzu edirəm ki, mənfur düşmənin səbəb olduğu bütün yaralar tezliklə sağalsın. Azərbaycan əsgərlərinə sülh və sabitliyə görə dərin minnətdarlığımı bildirirəm”.

# “Dövlət Proqramı il ərzində 300-400 nəfəri əhatə edəcək”



Xaricdə təhsillə əlaqəli daha çox texniki və texnoloji sahələrə, fundamental elmlərə üstünlük veriləcək. Bunu təhsil naziri Emin Əmrullayev Prezident İlham Əliyevin ”Azərbaycan gənclərinin nüfuzlu xarici ali təhsil müəssisələrində təhsil imkanlarının genişləndirilməsi haqqında” Sərəncamı ilə bağlı keçirdiyi brifinqdə deyib.

Nazir bildirib ki, proqrama əsasən tələbələr bakalavr, magistratura və doktorantura səviyyələrində təhsil ala biləcəklər. Lakin proqramda magistratura səviyyəsi üzrə təhsilə üstünlük veriləcək. Gənclərin xarici ölkələrin ali təhsil müəssisələrində təhsil almalarına dair yeni Dövlət Proqramı il ərzində 300-400 nəfəri əhatə edəcək.

Nazir bildirib ki, Gənclərin xarici ölkələrin ali təhsil müəssisələrində təhsil almalarına dair yeni Dövlət Proqramı il ərzində 300-400 nəfəri əhatə edəcək. Proqrama əsasən tələbələr bakalavr, magistratura və doktorantura səviyyələrində təhsil ala biləcəklər. Lakin proqramda magistratura səviyyəsi üzrə təhsilə üstünlük veriləcək. Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramında magistratura səviyyəsi üzrə təhsilə üstünlük veriləcək.

Xatırladaq ki, Sərəncama əsasən, sürətli inkişaf üçün zəruri olan müasir bacarıqlara malik insan kapitalının yaradılması, bu çərçivədə istedadlı gənclərin xarici ölkələrdə təhsil almasına dövlət dəstəyinin davam etdirilməsi, habelə uğurlu təcrübəyə əsaslanan effektiv maliyyələşmə modelinin formalaşdırılması məqsədilə Nazirlər Kabinetinə Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramının layihəsini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

# "Azərbaycanın sözünün imzası qədər əhəmiyyəti vardır"

## *YAP Veteranlar Şurasının təşkilatçılığı ilə "Azərbaycanı dünya liderliyinə aparan böyük rol" mövzusunda videokonfrans keçirilib*

***Oktyabrın 1-də Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının təşkilatçılığı ilə "Azərbaycanı dünya liderliyinə aparan böyük yol" mövzusunda videoformatda konfrans keçirilib.***











YAP Veteranlar Şurasının üzvlərinin, partiyanın Gəncə, Tovuz, Daşkəsən, Göygöl, Şəmkir, Samux, Gədəbəy, Naftalan, Qazax, Ağstafa, Siyəzən, Şabran, Xaçmaz, Quba, Qusar, Xızı rayon təşkilatlarının fəal üzvlərinin iştirakı ilə keçirilən konfransı giriş sözü ilə açan YAP İdarə Heyətinin üzvü, partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə bildirib ki, ulu öndər Heydər Əliyevin şah əsəri olan Azərbaycan yaxın günlərdə dövlət müstəqilliyinin bərpasının 30-cu ildönümünü qeyd edəcək: "Müstəqilliyimizin ilk illərində yaşananlar hər kəsə məlumdur. 1991-1993-cü illər Azərbaycanın çoxəsrlik tarixinə qara səhifə kimi yazılıb. Həmin dövrdə ölkədə xaosun, anarxiyanın, özbaşınalıqların, iqtisadi böhranın baş alıb getməsi xalqda sabaha böyük ümidsizlik ovqatı yaratmışdı. Belə çətin bir dövrdə xalq üzünü öz xilaskarına- ulu öndər Heydər Əliyevə tutdu. Xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Liderin düşünülmüş və məqsədyönlü siyasəti qısa müddətdə Azərbaycanı sabitlik diyarına çevirdi. Azərbaycanda bütün inkişafın əsası kimi qəbul olunan sabitliyin, normal iqtisadi mühitin yaradılması ölkəmizin böyük investisiyalar məkanına çevrilməsinə, ən əsası siyasi müstəqilliyinə geniş imkanlar açdı. Azərbaycan beynəlxalq münasibətlər sisteminin fəal üzvünə çevrildi." A.Rəhimzadə diqqətə çatdırıb ki, son 18 ildə ulu öndər Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən bütün sahələrdə uğurla davam etdirilməsinin nəticəsində bu gün böyük inamla qeyd edirik ki, Azərbaycanın sözünün imzası qədər əhəmiyyəti vardır.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, biologiya elmləri doktoru, professor Urxan Ələkbərov mövzu ətrafında geniş məruzə ilə çıxış edib. Bildirib ki, ulu öndər Heydər Əliyevin gələcəyə hesablanmış siyasətinin təntənəsi bugünkü Azərbaycandır. O Azərbaycan ki, 44 gündə Prezident İlham Əliyevin qətiyyəti, Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində 30 ilin işğalına son qoydu, ədaləti, ərazi bütövlüyümüzü bərpa etdi.

U.Ələkbərov hərbi-siyasi uğurun informasiya təminatından bəhs edib: "Dövlət başçısı İlham Əliyevin istər 44 günlük Vətən müharibəsi, istərsə də hazırkı postmünaqişə dövründə xarici mətbuata müsahibələrinə diqqət yetirdikdə informasiya cəbhəsində üstünlüyümüzün özünü qabarıq şəkildə büruzə verdiyini görürük. Ölkə Prezidenti böyük qətiyyətlə 30 illik işğal dövrünün reallıqlarını, Azərbaycanın beynəlxalq səviyyədə qəbul olunan ərazilərinin geri qaytarılması istiqamətində səylər göstərdiyini, 30 ildə sülh danışıqlarına üstünlük versə də qarşı tərəfin əsassız iddiaları, imitasiya naminə danışıqlara qoşulması nəticəsində sülh yolunun səmərə vermədiyini konkret faktlarla diqqətə çatdıraraq bir daha bildirir ki, Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısını böyük qətiyyətlə aldı, tarixə Zəfər səhifəsini yazdı."

Məruzə ətrafında çıxış edən YAP Veteranlar Şurasının üzvü Dilarə Seyidzadə bu gün beynəlxalq münasibətlər sistemində özünməxsus yer tutan, söz sahibi olan Azərbaycanın uğurlarında Heydər Əliyev yolunun rolundan danışıb. Bildirib ki, bu siyasətin son 18 ildə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanı qalib ölkə kimi tanıtdı.

YAP Veteranlar Şurasının üzvü Südeyif İmamverdiyev bildirib ki, dahi şəxsiyyət Heydər Əliyev uğurlu və düşünülmüş siyasəti ilə Azərbaycanı bir dövlət olaraq dünya xəritəsindən silinmək təhlükəsindən xilas etdisə, onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev adını tarixə işğal altında olan torpaqlarımızın xilakarı kimi yazdı.

YAP Veteranlar Şurasının üzvləri Əli Həsənov və Tahir Rzayev tarixi Zəfərimizin Azərbaycanı inkişafa, tərəqqiyə aparan yolun təqdimatı olduğunu bildiriblər. Qeyd ediblər ki, möhkəm təməl daim ölkəni inkişafa, tərəqqiyə aparır.









Azərbaycan dünya birliyinin fəal üzvü kimi cərəyan edən proseslərə ədalətli mövqeyini nümayiş etdirir, balanslaşdırılmış xarici siyasəti ilə davamlı uğurlara imza atır.

Videokonfrans diskussiya şəklində davam edib.

YAP Şəmkir rayon təşkilatının üzvü Emin İsmayılovun, Tovuz rayon təşkilatının üzvü Nihad Pənahovun, Şabran rayon təşkilatının üzvü Gülər Kərimovanın və Göygöl rayon təşkilatının üzvü Vüqar Hüseynovun sualları cavablandırılıb.

---

RƏY

## Hərbi analitik: "İrəvanın kiminsə qarşılıqsız yardımına ümid etməsi əbəsdir"



"Qazeta.Ru" nəşrinin hərbi analitiki Mixail Xodaryonok maraqlı şərh ilə çıxış edib. SİA xəbər verir ki, onun sözlərinə görə, Ermənistan böyük olmayan resursları və azalan əhalisi ilə müasir ordu qura bilməyəcək.

"Erməni tərəfi regiondakı silahlı qüvvələrin ərazi hazırlıqlarında və düşmənə qarşı müdafiə məsələsində çox az iş aparıb", deyə qeyd edən hərbi analitik hərbi əməliyyatlar teatrında ordunun və mühüm hərbi, eləcə də arxa cəbhə obyektlərinin qarşı tərəfin zərbələrindən müdafiəsi üçün də heç bir əhəmiyyətli tədbirlərin həyata keçirilmədiyini vurğulayıb. "Döyüş qabiliyyəti olmayan silahlı qüvvələrsiz istənilən siyasi bəyanat heç nəyə dəymir", Xodoryonok bildirib. Onun sözlərinə görə, İrəvanın kiminsə qarşılıqsız yardımına ümid etməsi əbəsdir, belə ki, Qərb Ermənistandan uzaqdadır, Rusiyaya isə bütöv bir proqramla İrəvanın tərəfində dayanması ona (Kremlə) sərf etmir.

Qeyd edək ki, Mixail Xodoryonok İkinci Qarabağ müharibəsi dövründə Ermənistanın tərəfindən çıxışlar edərək işğalçı ölkənin hərbi-siyasi dairələrini müdafiə edirdi. Bu gün isə onun Ermənistanı davamlı tənqidləri ilə hədəfə alması təəccüblü görünməkdədir.

***Rövşən***

---

## "Məskunlaşma proqnozlaşdırılandan daha tez baş verəcək"

### *İQTİSADÇI-EKSPERT ŞƏRH ETDİ*



"Füzuli və Cəbrayılın artıq baş planının hazırlanması prosesi gedir və güman olunur ki, yaxın vaxtlarda baş plan təsdiq olunacaq". Bu sözləri SİA-ya verdiyi açıqlamasında iqtisadçı-ekspert, Milli Məclisin deputatı Vüqar Bayramov deyib.

Millət vəkilinin sözlərinə görə, bununla da həm Füzulidə, həm Cəbrayılda baş plana uyğun olaraq şəhərin təməlqoyması, şəhərin salınması prosesi başlayacaq.

"Nəzərə alaq ki, artıq Ağdamın baş planı təsdiq olunduqdan sonra bu istiqamətdə intensiv olaraq şəhərin bərpa və yenidənqurulması həyata keçirilir, eyni zamanda Ağdamda sənaye parkı yaradılır. Gözlənilir ki, baş plana uyğun olaraq da hər iki şəhərdə, Füzuli və Cəbrayılda yaşayış yerlərinin, yaşayış sahələrinin, inzibati binaların yerləri müəyyənləşəcək. Eyni zamanda nəzərə alaq ki, sənaye məhəllələrinin digər ərazilərdə də formalaşması nəzərdə tutulur. O baxımdan həm aqrar, həm də sənaye üçün sahələrin ayrılması da nəzərdə tutulacaq. Nəticə etibarı ilə burada təbii ki, əsas məqsəd məskunlaşma prosesinin sürətli şəkildə aparılmasıdır.

Nəzərə alaq ki, artıq Füzuli Beynəlxalq Limanı istifadəyə hazırdır və təbii ki, bu, Füzuli şəhərinin yenidən qurulması, nəqliyyat, loqistika, eyni zamanda inzibati binalar, sosial obyektlər və yaşayış binalarının inşaatı üçün bir zəmin yaradır. Təbii ki, bu proses mənalı şəkildə həyata keçirilən bir prosesdir. İntensiv şəkildə baş planın hazırlanması ondan xəbər verir ki, məskunlaşma proqnozlaşdırılandan daha tez baş verəcək və bu da təbii ki, birbaşa intensiv şəkildə bərpa və yenidənqurma işlərinin aparılması ilə bağlıdır", deyə Vüqar Bayramov bildirib.

***İnam Hacıyev***

# Siqaret çəkmək vərdişdir, yoxsa intihar? - ARAŞDIRMA

*Son zamanlar siqaret çəkən kişilərlə yanaşı, qadınların da sayı kifayət qədər çoxdur. Mütəxəssislər siqaret çəkən qadınlarda düşük, erkən doğum, hamilə qalmamaq və s. kimi təhlükəli risklər olduğunu vurğulayırlar.*



Siqaret çəkmə xüsusilə qadınların cinsiyyət orqanlarına, yəni cinsi reproduktiv orqanlara təsir göstərir. Doğuş və hamilə qalma şansını azaldır. Bu qadınlar vaxtından əvvəl doğum edir. Siqaret çəkən hamilə qadınlarda müxtəlif qanaxmalar meydana gəlir. Sonrakı yaşda olan qadınlar isə erkən klimaks keçirirlər.

Qadınlarda erkən qırışlar və dəri xəstəlikləri meydana gəlir və qadınlarla əlaqəli bütün xərçəng növləri üçün risk faktorları arasında siqaret çəkmə aparıcı yer tutur. Siqaret çəkmək qadınlar üçün son dərəcə təhlükəlidir.

Qadınların siqareti buraxmağın kişilərə nisbətən daha çətin olduğunu qeyd edən mütəxəssislər, beyindəki digər bioloji dəyişikliklər səbəbindən qadınların siqareti buraxmasının daha çətin olduğunu xüsusi qeyd edirlər. Siqaret şirkətləri bunu bildiyindən qadınları daha çox bağımlı etmək üçün müxtəlif fəaliyyətlərlə məşğul olurlar. Qadınlara məsləhət odur ki, siqaret çəkməyin. Başlamısınızsa, ən qısa müddətdə ayrılın. Kişilərdən daha çox risk altındasınız. Çünki siqareti buraxmaq sizin üçün daha çətindir.

Siqaret çəkənlər və siqaretdən imtina etmiş şəxslər, heç vaxt siqaret çəkməyənlərə nisbətən daha çox acı çəkirlər. London Universitet Kollecinin tədqiqatçıları tərəfindən 220 min insanın məlumatlarını araşdıraraq apardıqları araşdırma belə bunun səbəbini ortaya çıxara bilməyib. Ancaq siqaretin bədəndə daimi dəyişikliklərə səbəb olduğu düşünülür.

**SİA məsələ ilə bağlı sosioloq, psixoloq və ekspertlərin də fikrini öyrənib:**



**Sosioloq, Sağlam Cəmiyyət Hərəkatının sədri Lalə Mehralı:** "Bununla bağlı qadağa da tətbiq edildi. Xüsusi siqarət çəkmək üçün ayrılan yerlər də oldu. Lakin çox təəssüflər olsun ki, əməl edən azdır.

Qapalı məkanlarda siqaretçəkmə məsələsi bizim yaralı yerimizdir. Xüsusilə, uşaqların olduğu məkanlarda belə hallara yol verilməsi çox böyük narahatlıq doğurur.

Doğrudur, avtobus, metro kimi ictimai nəqliyyatda siqaretdən istifadəyə icazə yoxdur. Lakin hər hansısa restoran və kafedə rəhbərlik bununla bağlı qadağa tətbiq etmir. Rəhbərlik bunu müştərini itirməmək üçün edir. Bu da zərəri digər müştərilərə vurmaq deməkdir.

Xanımların siqaret çəkməsi məsələsi isə, ümumiyyətlə, mənim qəbul etmədiyim bir şeydir. Bu, hər kəsin şəxsi fikridir. Hər kəs özü bilər və hər kəsin öz orqanizmidir. Amma "öz bədənidir"dən kənara çıxan bir məsələ var ki, bu qadın gələcəyin anasıdır. Onun öz bədəninə vurduğu zərər gələcək nəsillərə vurduğu zərər deməkdir. Ona görə qadınların siqaret çəkmə məsələsi mənim əsla qəbul etmədiyim və qəbul edə bilməyəcəyim bir problemdir. Bir şey ki, növbəti nəsillərdə öz fəsad və zərərini göstərəcək, ona laqeyd qalmaq olmur. Məni narahat edən yalnız bu tərəfidir.

Amma tutalım "mən dünyaya uşaq gətirməyəcəyəm, belə bir fikrim yoxdur" və yaxud da "dünyaya uşaq gətirdikdən sonra siqaret çəkməyə başlamışam" kimi fikirlərə qarışmaq da heç kimin haqqı deyil. Bu, fərdin şəxsi seçimidir".



**Psixoloq Aytən Ələkbərova:** "Çox təəssüflər olsun ki, ictimai yerlərdə siqaretin artması, hətta kafe restoranlarda da rahatlıqla siqaret istifadə edən insanlar görürük. Çox üzülərək qeyd edirəm ki, bu insanların içərisində kifayət qədər qadınlar da var.

Çingiz Abdullayevin çox gözəl bir sözü var ki, "Mən, siqaret çəkən xanımı bir külqabıya bənzədirəm". Yəni, qadından ən azı parfüm qoxusu gələr, siqaret qoxusu yox.

Amma son dövrlər xanımlar arasında siqaret çəkmək bir dəb halını alıb. Bu cür insanlar kənardan heç yaxşı qarşılanmır".



**Araşdırma mövzusu ilə bağlı şəhər sakinlərinin də fikirlərini öyrəndik:**

**Şəhər sakini Ülkər Xəlilli:** "Siqareti ona görə sevmirəm ki, çəkən insan təkcə özünə yox, ətrafına da zərər verir. Hətta deyərdim ki, ətrafa zərəri daha çoxdur. Siqaret çəkənlərə normal baxıram, əslində, amma zərərlidir. Heç kimin çəkməsini istəmərəm. Nə qız, nə də oğlan. Çəkməsələr ömürləri uzanar, həm də ətrafa zərər verməmiş olarlar".

**Şəhər sakini Aytac Ali:** "Siqaretə qarşı çox həssasam. Qoxusu gələn kimi öskürüb-asqırmağa başlayıram. Demək olar ki, nifrət etdiyim şeylər sırasında öndə gəlir. Nə oğlan, nə qız fərqi yoxdur, istəmərəm belə bir vərdişə yiyələnib, sağlamlıqlarına ziyan vursunlar. Düşünsək ki, hələ pandemiyadır və bu çox təhlükəlidir. Əvvəllər qızlar siqaret çəkəndə təəccüblənir, qəribə hiss edirdim. Çünki heç oğlanlarda da bu vərdiş düzgün gəlmirdi mənə. İndi isə "hər kəs özü bilər, hərənin öz həyatı var" fikrindəyəm. Özüm isə bu və bunun kimi zərərverici amillərdən uzaq durmağa çalışıram".

Şəhər sakini Fatimə Əzizli: "Siqaret daxilində tütün maddələri olan zərərli vasitədir. İnsan onu çəkib zövq belə ala bilməz. Çünki bir neçə il çəkilən siqaret ağciyər, mədə və s. kimi insan orqanizminə ziyan gətirir. Siqaret xərçəng xəstəliyinin yaranmasına səbəb olur. İnsan ömründən aparan həm zəhərli, həm də zərərli maddədir. Kişilərlə yanaşı, qadınlar da son illərdə siqaret çəkməyə başlayıblar. Qadında da, həmçinin, siqaret çəkmək eyni problemlərin yaranmasına səbəb olur. Bununla yanaşı isə mən, bir Azərbaycan xanımına zərərli maddələri qəbul etməyi yaraşdırmıram. Həm öz daxilimizi, həm də ətraf mühiti zərərli maddələrdən qoruyaq. Siqaret qutularının üzərində yazıldığı kimi "Siqaret çəkmək sizin sağlamlığınıza ziyan vurur". Öz əlimizlə öz gəncliyimizi məhv etməyək. Sağlam yaşayaq, sağlam ömür sürək".

**Şəhər sakini Ləman Quliyeva**: "İnsan bilərək nə üçün öz sağlamlığına zərər vursun ki?! Təbii ki, sağlamlığa zərər olduğu üçün sevmirəm və istifadə etmirəm. Hər kəsin şəxsi fikiridir. Bir söz deyə bilmərəm. Pis də baxmıram. Amma öz sağlamlıqları üçün çəkməməklərini tövsiyə edirəm".

**Şəhər sakini Fatma Abdullayeva:** "Siqaret çəkmək hər kəsin öz seçimidir deyə düşünürəm və insan seçimlərini ona zərər verəcəyini bilərək seçir. Mən sağlamlığımı qorumaq üçün siqaret çəkmək istəmirəm. O ki qaldı qızların siqaret çəkməsi məsələsinə, mncə, kiminsə həyatına, seçimlərinə qarışmaq başqasının həddi deyil, əgər o həmin insanın ailəsi deyilsə".

Şəhər sakini Sevinc Quliyeva: "Ümumiyyətlə siqaret çəkmək, içki içmək bir seçimdir. İnsanlar bunu özü seçir və istifadə edir. Öncə bunu deyim ki, mən, ona görə siqaret çəkmirəm, xoşlamıram ki, bunu qadın kimi zərif bir varlığa yaraşdırmıram. Amma klassik azərbaycanlılar kimi siqaret çəkən qadınlara da əxlaqsız kimi baxmıram. Tanıdığım siqaret çəkən qadınlar var ki, heç bəzi hicablı qadınlar onlar qədər namuslu deyil. Bu, şəxsi həyata daxil bir nüansdır və mən də hər kəsin şəxsi qərarlarına və həyatına hörmətlə yanaşıram. Amma yenə deyirəm, mənim fikrimcə, qadın çiçəkdir və tütün qoxusu onu tez zamanda soldura bilər".

**Şəhər sakini Fatimə İsmayılova:** "Siqaret çəkənlərə pis baxmıram. Sadəcə, zərərli vərdişdir. Məncə, istəsələr siqareti tərgidə bilərlər. Ancaq hamının öz fikri və qərarı var. Siqaretin çox pis qoxusu var ki, bu da kənar şəxsləri narahat edir. Qızların siqaret çəkməsinə də qarşıyam. Qadına yaraşmır siqaret çəkmək. Həm zərəri, həm qoxusu iyrəncdir. Qadından siqaret qoxusu gəlməməlidir".

***Ayşən Vəli***





# Revanşistlərin puç olan xəyalları...

**Azərbaycan Prezidenti: "Hesab edirəm ki, revanşizm səylərindən vaz keçmək və gələcəyə doğru baxmaq üçün Ermənistana xəbərdarlıq etmək vaxtıdır"**

44 günlük müharibə Azərbaycanın tam qələbəsi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Bu dövr ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olundu; Düşmənin əksər texnikası məhv edildi, canlı qüvvəsinə ciddi zərbə vuruldu. Ermənistan ordusu darmadağın edildi. Azərbaycan Dağlıq Qarabağın incisi olan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi azad etməklə, Ermənistanı diz çökdürdü və kapitulyasiyaya məcbur etdi. Ermənistanın daxilindəki hazırkı biabırçı mənzərə və gərgin vəziyyət, Paşinyana qarşı artan etirazlar, bununla müqayisədə Ali Baş Komandan, Prezident İlham Əliyevin fəxrlə bəyannaməyə imza atması, Azərbaycan xalqının əhval-ruhiyyəsi, bayram sevinci kimin qalib, kimin isə məğlub olduğunu aydın şəkildə nümayiş etdirir. Bir sözlə, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu canı-qanı bahasına Ermənistan Ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış mifi 44 günə dağıtdı, bütün qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa vadar etdi, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Sübut edildi ki, Azərbaycanın razılığı olmadan Dağlıq Qarabağla bağlı heç bir qərar qəbul edilə bilməz.Bəli, dövlət başçımızın dediyi kimi, revanşizm səylərindən vaz keçmək və gələcəyə doğru baxmaq üçün Ermənistana xəbərdarlıq etmək vaxtıdır.Prezident İlham Əliyev "France-24" televiziya kanalına müsahibəsində aparıcının "Müharibənin ildönümü ilə əlaqədar müraciətinizdə Siz dediniz ki, "əgər biz erməni faşizminin bir daha baş qaldırdığını görsək, yeni təhlükə görsək, heç bir tərəddüd etmədən erməni faşizmini yenidən əzəcəyik". Bu, sülh mesajı kimi səslənmir, elə deyilmi sualını cavablandırarkən deyib: "Regionda sülhün bərqərar olunması ilə bağlı bizim mövqeyimizə gəldikdə, mən bir neçə dəfə açıq bəyanatlar vermişəm və yəqin siz internetə baxsanız onları tapa bilərsiniz. Bunlar xüsusilə sərhədlərin delimitasiyası və demarkasiyası üzərində işə başlamaqdan, Ermənistanla sülh sazişinin üzərində aparılacaq hərtərəfli danışıqlara hazırlaşmağa başlamaqdan ibarətdir. Bütün bunlar xoşməramlı jestlərdir".

Dövlətimizin başçısı həmçinin bildirib ki, bunların heç birinə Ermənistan rəhbərliyi tərəfindən adekvat cavab verilməyib: "Onlar ya bu təkliflərə məhəl qoymur, ya da ki, hazır olmadıqlarını deyirlər. Lakin mənim bəyanatım öz mənşəyini Ermənistanda müşahidə etdiyimiz tendensiyadan götürür. Bu siyasi istablişmentin bəzi dairələrində revanşizm tendensiyasıdır. Söhbət təkcə müxalifətdən getmir, iqtidardan da gedir. İntiqam almaq üçün ictimai bəyanatlardan və daha önəmlisi praktiki addımlardan, Ermənistanı militarizasiya etmək cəhdlərindən, bir məqsəd xatirinə edilən, müharibəyə yenidən başlamaq üçün yeni müasir avadanlıqlara çıxış əldə etmək cəhdlərindən gedir. Buna görə, mənim sözlərim kobud görünə bilər, lakin, bu sözlərin əsas məqsədi Ermənistan rəhbərliyi və Ermənistan siyasi istablişmentini istənilən revanşizm əlamətlərinə, xalqımıza, dövlətçiliyimizə və ərazi bütövlüyümüzə qarşı istənilən təhlükəyə cavab veriləcəyi haqqında xəbərdar etməkdən ibarət idi". Prezident İlham Əliyev vurğulayıb ki, onlar bizim necə cavab verdiyimizi bilir və İkinci Qarabağ müharibəsi onların bizim qarşımızda heç bir şansının olmadığını göstərdi: "Biz müharibəyə başlamaq istəmirik. Bu, bizə lazım deyil. Danışıqlar aparılan illər ərzində bu, bizə heç vaxt lazım olmayıb. Lakin indi hesab edirəm ki, revanşizm səylərindən vaz keçmək və gələcəyə doğru baxmaq üçün onlara xəbərdarlıq etmək vaxtıdır".

**"Biz, əlbəttə, bu ittihamları rədd edirik. Müharibə zamanı əsir götürülmüş bütün hərbi əsirlər Ermənistana qaytarılıb".**

Azərbaycan Prezidenti "France-24" televiziya kanalına müsahibəsində "Hərbi əsirlərə gəldikdə, "Human Rights Watch" Azərbaycanı onları saxlamaqda, onlara işgəncə verilməsində ittiham edir. Buna cavabınız necə olardı? Xoşməramlı jest kimi, Ermənistanla onları mübadilə etməyə hazırsınızmı? sualını cavablandırarkən bildirib ki, Ermənistan hökuməti bunu təsdiq edə bilər: "Biz onları, hətta onlar bizim hərbi əsirləri qaytarmazdan əvvəl qaytardıq. QHT-lərin istinad etdiyi həmin şəxslərə gəldikdə, onlar müharibə başa çatdıqdan və noyabr Bəyannaməsi imzalandıqdan iki həftə sonra Ermənistanın hərbi komandirləri tərəfindən bizim mövqelərə doğru göndərilmişdilər və beləliklə, dörd azərbaycanlı hərbçini qətlə yetirərək cinayət törətmişlər. Onlar zərərsizləşdirildi və həbs olundular. Cinayətdə iştirakı olmayanların çoxu artıq qaytarılıb. Cinayət törədənlərə isə məhkəmələr tərəfindən cəza müəyyən edilib".

**"Münaqişə həllini tapıb, bu, mənim mövqeyimdir. Mən bu mövqeyi müdafiə edirəm. Mövcud reallıq onu nümayiş etdirir ki, bu, düzgün mövqedir"**

"Mənim məsələnin həll edilmədiyini deyən həmin ölkələrə tövsiyəm odur ki, öz ərazilərində erməniləri yerləşdirmək və öz ərazilərində ikinci Ermənistan dövləti yaratmaq üzərində düşünsünlər". Bunu Prezidenti İlham Əliyev Fransanın "France-24" televiziya kanalına müsahibəsində "Siz Qarabağa muxtariyyət verməyə hazırsınız? Minsk qrupunun üzvü ABŞ hələ də bəyan edir ki, Qarabağ məsələsi öz həllini tapmayıb. Siz bəyan edirsiniz ki, məsələ həllini tapıb və Qarabağ sizə məxsusdur. Lakin illər ərzində bu münaqişədə vasitəçilik edən bir sıra ölkələr iddia edir ki, məsələ həll edilməyib" sualını cavablandırarkən deyib.

Dövlət başçısı bildirib ki, niyə onlar hesab edirlər ki, hər hansı hüquqi, siyasi və tarixi əsaslar olmadan Azərbaycan ərazisində ikinci erməni dövləti yaradılmalıdır: "Mən deyəndə ki, münaqişə həllini tapıb, bu, mənim mövqeyimdir. Mən bu mövqeyi müdafiə edirəm. Mövcud reallıq onu nümayiş etdirir ki, bu, düzgün mövqedir. Münaqişənin həll olunmaması ilə bağlı istənilən bəyanat yersiz olmaqla yanaşı, təhlükəlidir. Münaqişə həll edilməyib deyənlər göstərsinlər ki, o, necə həll olunmalıdır. "Dağlıq Qarabağ" dedikdə onlar nəyi nəzərdə tuturlar? Hansı sərhədlər çərçivəsində, hansı ərazidə, hansı formada? Həmin sualları cavablandırmaq üçün eyham belə yoxdur. Bu səbəbdən münaqişənin həll edilmədiyini söyləmək qeyri-səmərəli və təhlükəlidir. Bu, o deməkdir ki, onu həll etmək üçün düşmənçilik xarakterli digər hərəkətlərə ehtiyac var. Sizin muxtariyyətlə bağlı sualınıza gəldikdə, Minsk qrupunun həmsədrləri 28 il sürən mənasız danışıqlarda Azərbaycanın mövqeyindən çox yaxşı xəbərdardırlar. Biz Azərbaycanda yaşayan ermənilərə müəyyən səviyyədə özünüidarəetmə təqdim etməyə hazır idik. Ermənilər hər zaman bunu rədd edirdilər. Onlar hər zaman "yox" deyirdilər - yalnız müstəqillik. İndi isə münaqişə başa çatdığından, onlar muxtariyyət haqqında danışırlar. Bu isə bizim gündəliyimizə daxil deyil. Bu gün Qarabağda Rusiya sülhməramlılarının məsuliyyət zonasında yaşayan ermənilər ölkəmizdə yaşayan digər etnik qrupların nümayəndələri kimi Azərbaycan vətəndaşlarıdır".

**"Azərbaycanın siyasi və coğrafi xəritəsində "Dağlıq Qarabağ" adlı vahid yoxdur"**

Prezident İlham Əliyev Fransanın "France-24" televiziya kanalına müsahibəsində bildirib ki, "Mənim bəyanatlarımda siz heç vaxt ərazi iddialarının əlamətlərini tapa bilməzsiniz. Mənim nəzərdə tutduğum tarixi həqiqətdir. Bu, bir tarixi faktdır ki, 1920-ci ildə sovet hakimiyyəti Azərbaycanın ayrılmaz hissəsi olan Zəngəzuru qopararaq onun Ermənistana birləşdirilməsi ilə bağlı qərar qəbul edib və bu qərar icra olunub. Bu hadisə 1920-ci ildə baş verib - 101 il bundan əvvəl".

Prezident İlham Əliyev qeyd edib ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları hələ də var: "Onlar hələ də iddia edirlər ki, "Dağlıq Qarabağ" bizə məxsus deyil. Onlar hələ də iddia edirlər ki, o, ya Ermənistana məxsusdur, ya da ki, "müstəqil" bir qurumdur. Azərbaycanın siyasi və coğrafi xəritəsində "Dağlıq Qarabağ" adlı ərazi vahidi yoxdur. Belə bir qurum mövcud deyil. Beləliklə, Ermənistan ilk növbədə Azərbaycana qarşı istənilən ərazi iddiasını geri götürməli və özünü yaxşı aparmalıdır. Biz isə adekvat münasibət göstərəcəyik".

Bəli, Azərbaycan Prezidenti istər müsahibələrində, çıxışlarında, görüşlərində, istərsə də işğaldan azad olunmuş torpaqlara hər səfərində dönə-dönə bildirir ki, hər bir sahədə gücümüz də var, iradəmiz də var, cəsarətimiz də var. Yumruq da yerindədir: "Ermənistanda nə güc var, nə iradə var, nə hər hansı bir mənəvi haqq var ki, revanşist fikirlərlə yaşasın. Bu, onlar üçün özünəqəsddir. Bir daha demək istəyirəm, biz hələ ki, bu bəyanatları izləyirik. Biz hələ ki, təmkin göstəririk. Amma odla oynamasınlar. Onlar bizim yumruğumuzu görüblər. Bu yumruq yerindədir. Heç kim bizim qabağımızda dura bilməz. Əgər biz zərrə qədər təhlükə görsək, - zərrə qədər, - onları dərhal məhv edəcəyik. Elə yerindəcə məhv edəcəyik. Onlar da bunu bilirlər. Gücümüz də var, iradəmiz də var, cəsarətimiz də var. Yumruq da yerindədir".

Bəli, Azərbaycan Prezidentinin verdiyi mesajlar təkcə Ermənistana deyil, həm də bu ölkənin havadarlarına ünvanlanmışdı. Ölkə başçısı tam əminliklə qeyd edir ki, Dağlıq Qarabağ problemi artıq geridə qalıb, münaqişəni alovlandırmaq cəhdləri tamamilə əbəsdir. Eyni zamanda, hazırda Qarabağda yaşayan ermənilərə statusun verilməsindən söhbət gedə bilməz, bu məsələ birdəfəlik bağlanıb. Digər tərəfdən, Ermənistandan hansısa təxribat olacağı təqdirdə, Azərbaycan "Dəmir yumruğ"nu yenidən işə salaraq, düşmənin dərsini verəcək. Zəngəzur dəhlizinin açılmasına gəlincə, ölkə başçısı regionu birləşdirəcək layihənin reallaşacağını, heç kimin ölkəmizin təşəbbüsünə mane ola bilməyəcəyini lazımı ünvanların diqqətinə çatdırmış oldu.

**RƏFİQƏ KAMALQIZI**



# "44 günlük" ilk əfsanəvi tarixin müəllifi "Əliyev İlham Heydər oğludur!

**SİA YAP Veteranlar Şurasının üzvü, filologiya elmləri doktoru, professor Əjdər İsmayılovun yap.org.az-a verdiyi müsahibəni təqdim edir:**

**- Əjdər müəllim, Azərbaycanın öz haqq işi uğrunda savaşa qalxdığı gündən bir il ötdü. 2020-ci ilin həmin gününə gələn yolu və 44 günlük Vətən müharibəsində Azərbaycanın şanlı qələbəsini, ordusunun keçdiyi zəfər yolunu necə dəyərləndirirsiniz?**

- Əvvəla, Vətən savaşımızda Şəhid olan övladlarımızın ruhu qarşısında baş əyir, ailələrinə səbr diləyirəm. Qazilərimizə tezliklə şəfa tapmalarını Allahdan arzu edirəm. 27 sentyabr işğal olunmuş torpaqların azad olunması yolunda həm ümummilli lider Heydər Əliyevin, onun haqq dünyasına qovuşmasından sonra isə dövlət başçısı İlham Əliyevin apardıqları məqsədyönlü və məntiqi siyasətin nəticəsi idi.

Düşmən üzərində bu şanlı tarixi qələbəmiz vahid Azərbaycanı iki hissəyə parçalamış qəddar rus imperiyasının 200 illik işğal tarixinə vurduğu ilk ağır zərbədir!.. Bu, təkcə Ali Baş Komandanımız İlham Heydəroğlunun ona atasından miras qalmış səbr, təmkin və zamanı qabaqlayacaq böyük müdrikliklə tarixən yarıdılənçi olmuş köçkün ermənilərə deyil, onların simasında 1990-cı illərdə "Qanlı Qarabağ tarixi"ni yazan, ermənilərə güclü hərbi texnika ilə yardım göstərən, torpaqlarımızı 30 il işğal altında saxlayan rus imperiya maraqlarına, Fransanın Baş naziri Emmanuel Makronun türk-islam düşməni olduğu hər addımda duyulan terrorçu dövlətinə və saman altından su yeridən bəzi "dost və qardaş" dövlətlərə vurduğu çox böyük tarixi zərbədir.

**- Ermənilərin icma olaraq regiona köçürülməsi barədə kifayət qədər tarixi faktları üzə çıxarmısınız. Hətta erməni əsilli tarixçilərin özləri bunu etiraf edirlər. Sizin tədqiqatlarınızda da bu barədə məlumatlar var...**

- XIX əsrin əvvəllərindən günümüzədək Azərbaycan türklərinə qarşı Rusiya imperiyasının marağının qanlı siyasət şahmat taxtasında "peşka" olan, bizim "erməni" adlandırdığımız icmanın bəşər tarixinin hər hansı bir dövründə nə bir qarış torpağı, nə etnik mədəniyyəti, nə etnik dini, nə də xüsusən soy-kök adı - eponimi olmuşdu.

Bu barədə 2006-cı ildə nəşr edilən "Qədim Ön Asiya və Ön Qafqaz türk tayfaları" adlı elmi əsərimdə məhz erməni və ermənipərəst alimlər, mötəbər keşiş ədəbiyyatı və onların arxiv məlumatları əsasında çox geniş tədqiqat aparmış və danılmaz faktlarla qeyd etmişəm.

Bu baxımdan ömrünün sonunadək İrəvan universitetlərində gəncliyin beynini zəhərləyən ifrat türk düşməni olan Manuk Abeqyanın etirafı müstəsna elmi dəyərə malikdir. O yazır: "Erməni xalqının əsli nədir, necə və nə vaxt, haradan və hansı yollarla buraya (Kiçik Asiyaya-Ə.T.) gəlib. Bununla bağlı əlimizdə dəqiq və aydın dəlillər yoxdur". "Erməni tarixinin atası" hesab etdikləri anonim keşiş Moisey Xorenatsinin "Biz kiçik, kifayət qədər məhdud saylı və qüvvəti olmayan, başqalarının hökmranlığı altında yaşamış xalqıq" etirafı onun "Böyük Ermənistan" iddiasında olan tarixçi varislərinin saxtakarlıqlarını aşkara qoyur. Qaynaqlarda, mötəbər tarix ədəbiyyatında da erməni icmasının ailə şəklində, ayrı-ayrı ərazilərdə içərisində yaşadıqları xalqların onları hansı etnoadla tanımaları barədə heç bir qeydin olmaması da bunu təsdiq edir. Ancaq erməni mənsubiyyətli polşalı yepiskop Simeon Lehatsi (XVI əsr) nifrətlə yazırdı: "Yunanlar ermənilərin tarixi düşmənləridirlər. Onlar bizə "İşkil" deyib, tüpürüb bayıra atdılar. Hər hansı erməni yunanın qızıl camında su içsəydi, onlar "uf" demədən camı çaya atardılar". Uşaqlıq illərində babalarımızdan, nənələrimizdən eşitdiyim "Suya düşmüş itlə, yağışa düşmüş erməninin fərqi yoxdur" hikməti erməni keşişin fikrinə real aydınlıq gətirmiş olur. Yunanların lənətlənmiş "İşkil" damğası Azərbaycan türkü dilində "Səllim itlər" mənasında işlənir. "Səllim itlər"in də nə ataları məlum olur, nə yurd-yuvaları. Hansı qapıda süfrə qırıntılarını, sür-sümüyü onun qabağına tökərsən, həmin qapıda quyruq bulayar, guya "sadiqliyini" bildirmək üçün başını evin astanasına qoyar. Təkzibedilməz tarixi həqiqət budur ki, Qərbi Avropadan Kiçik Asiyaya gəlmə, tarixləri elmə məlum olmayan "İşkil" icması ailə şəklində günəmuzd yerli əhalinin-türklərin ağır və çirkin işlərini görmüş, onların süfrələrindəki qır-qırıntı ilə dolanmışlar. Bu vəziyyət "İşkil" icmasının son nəsillərinin orta əsrlərdən başlayaraq, rahat insani yaşayış axtarışı ilə dünyanın hər yerinə ailə şəklində şeytan toxumu kimi səpələnmələrinin acı tarixidir. Bu baxımdan günümüzə gəlib çatmış erməni Ata sözü maraqlıdır. Hər bir xalqın Ata sözü onun əcdad tarixidir."Harde hats, inde qats" (azərbaycan türkcəsində "Harda çörək var, ora vətəndir" anlamı verir)

Kilikiya kilsəsi "İşkil" damğası ilə lənətlənmiş mənsub olduğu icmanın tarixi ləkəsini gələcək nəsillərdən gizlətmək üçün Babil tarixçisi Berosun (m.ö.III əsr) "Vaviloniya" ("Babıl tarixi") kitabından "Bell-Hayk" əfsanəsini götürmüş, onu anonim keşiş Moisey Xorenatsinin adına tərtib etdiyi "Hayıstan tarixi"nə əlavə edərkən babilli Haykı "erməniləşdirmək" üçün onu dövrün siyasi ruhuna uyğun əsaslı şəkildə işləmişlər. Bununla da kilsə xaldeyli Müqəddəs Haykı erməni icmasının əcdadı kimi "tarixi şəxsiyyətə" çevirmişdir. Əfsanənin erməni variantında erməni tarixçiləri siyasi məqsədlə Haykı Babilistandan Kiçik Asiyaya, indiki Van gölü sahillərinə gətirirlər. Onların iddialarına görə, guya Haykın şərəfinə həmin ərazidə "Haykastan" adında şəhər salınır.

**- Saxta dövlətçilik tarixi uyduran ermənilər faktları təhrif edərək ən müxtəlif ideologiyalar adı altında dünya ictimaiyyətini çaşdırmağa çalışırlar. Sizə elə gəlmirmi ki, ermənilər "saxta tarixdən" məharətlə istifadə edirlər?**

- Bəli, tamamilə doğrudur. Fikir verin, tarixin heç bir dövründə torpağa köçürülməmiş bu mifik "şəhər" -"Haykastan" keçən yüzilliklərdən başlayaraq, erməni və ermənipərəst muzdlu rus tarixçilərinin əlində Osmanlı türklərinə qarşı ideoloji silaha çevrilmişdi. Onların məqsədi yurdsuz-yuvasız, yarıdılənçi, adsız erməni babalarına Ön Asiyada "dövlət tarixi" yazmaqdır. Bunun üçün erməni babalarının soy kökünü xaldeyli Haykın mifoloji şəxsiyyəti ilə bağlamaq, xaldeylərin əfsanəvi tarixini "erməni tarixinə" çevirməkdir. Əlbəttə, əfsanədən gələn tarix də əfsanədə qalar.

Dünya xalqları tarixində bəşər övladı adına layiq soy-kökü olmayan,yunanların "İşkil" ("Səllim itlər") damğası ilə türklərin qapısında günəmuzd yaşayış tərzi keçirən, m.s.IX əsrdə Babil/Xaldey əfsanə qəhrəmanı Haykın adını eponim olaraq qəbul edən, kiçik ailə icması şəklində yaşamış belə bir yarıdılənçi əhalini tarixə tanıdan da rus imperiyasıdır.

1828- ci ildə qanlı rus süngüsü ilə yazılmış "Türkmənçay" irtica müqaviləsi bir anadan, bir atadan doğulmuş Azərbaycan türklərinin iki qədim dövlətini - Atarpaten (yunan ədəbiyyatında "Atropatena" m.ö.IV - m.s.VII əsrlər) və "Ön Qafqaz Oğuz Albaniyası" (m.ö.IV-m.s.VII əsrlər) dövlətini- Vahid Azərbaycanı qəddarcasına parçaladı və ermənilərə siyasi şərait yaratmış oldu. Başqa sözlə, işğalçı imperiya Qafqazda etibarlı "xristian qardaşları" dayağı yaratmaq məqsədilə Livan, Suriya, İraq,Türkiyə və İrandan tarixən ailə şəklində günəmuzd həyat şəraitində yaşamış yarıdılənçi erməni ailələrini Ön Qafqaza köçürdü və Oğuz Albaniyasının qərbində-Ağrı dağı vadisində imperiyanın tərkibində Anadolu türkləri ilə üz-üzə "Arman vilayəti" yaratdı. Bu, işğalçı rusların qədim Oğuz Albaniyasının qərb ərazisində təşkil etdikləri dünya tarixində ilk "dövlətdir".

1827-ci ildə İrəvan qala şəhərini işğal etmiş general İ.F.Paskeviç I Nikolaya yazırdı: "...Zati-aliləri! "Armeniya vilayəti"nin yaradılması h ə l ə l i k (kursiv-Ə.T.) Azərbaycan torpaqlarını ikiyə bölmüş olur və Osmanlı Türkiyəsinə qarşı bir poliqon bölgəsinin meydana gəlməsinə şərait yaradır. Bu olduqca vacib şərtdir". İrəvan qala şəhərində yerli əhaliyə qanlı divan tutan İ.F.Paskeviçin məktubda aydın şəkildə yazılmış işğalçı siyasəti bu gün də ənənəvi olaraq, açıq, ya da gizli şəkildə Kremlin biz türklərlə "dostluq" əlaqələrinin siyasi mahiyyəti dəyişilməz qalır. Rus imperiyasının iki yüz il erməniləri qabağa verib, Azərbaycan türklərinin başına hansı ağlasığmaz fəlakətlər açdığını, rayon və kəndlərimizdə, xüsusən Qarabağda qətliamlar törətdiyini Kreml 70 ildə apardığı məkrli "dostluq və qardaşlıq" siyasəti altında nəsillərimizə zaman-zaman unutdurdu.

Ancaq türkün tarixi düşmənləri olmuş daşnak-bolşevik terrorunun ideoloqları - əqidə "dostlarını" ingilislərə satmış, son illərədək Hindistanda onların himayəsində şərəfsiz ömrünü başa vurmuş Stepan Şaumyanın və "Kremlin qoca tülküsü" adlandırılan Anastas Mikoyanın Kremldə bu gün də hökm sahibi olan varislərinin M.S.Qorbaçovun hakimiyyəti illərindən başlayaraq yazdıqları "Qanlı Qarabağ tarixi"ni nəsillərimiz heç zaman unutmayacaqdır! Onlar dünya ictimaiyyətinin gözü qarşısında Azərbaycan türklərinin qədim Qarabağ torpaqlarını işğal edəndə, ermənilərin adından yarıdılənçi erməni köçkünlərini bəhanə edərək XIX əsrin əvvəllərində qədim İrəvan xanlığında "Ermənistan" adında dövlət yaratdıqları kimi, XX əsrdə də Qarabağda imperiyanın tərkibində "ikinci-erməni dövləti" təşkil etmək üçün "Artsax" ("Arsak"-Ə.T.) toponimini uydurdular. Bu toponimin ermənilərlə heç bir əlaqəsi yoxdur. "Arsak" toponiminin etnotarixini qısaca nəzərdən keçirsək, aşkar olacaq ki, işğalçı imperiya maraqları Azərbaycan ərazisində "ikinci erməni dövləti" təşkil etmək üçün ermənilərin saxtakarlığını siyasi məqsədlə bayrağa çevirmişdi.

**- Bu işdə ermənilərə dəstək verən xarici qüvvələrin rolunu necə qiymətləndirirsiniz?**

- 1994-cü il 14 may tarixindən başlayaraq, ordumuzun qələbəsinədək "peşka"nı - ağasına hər zaman qul olmuş cahil və nadan erməniləri qabağa verib, "atəşkəsi" pozan, Tərtəri, Gəncəni, Bərdəni və işğaldan uzaq olan başqa rayon və kəndlərimizi hərb tarixində qadağan olunmuş raketlərlə dağıdan da, dinc günahsız adamları ailəlikcə məhv edən də həmin xarici qüvvələrdir.

Məqsəd əhalini qorxudub sərhəd kəndlərindən qovalamaq, 30 il dağ yüksəkliklərindən başlayaraq, sərhəd kəndlərimizə doğru uzanıb gələn beş qata sıralanmış alınmaz istehkamları, on kilometrlərlə uzanıb gedən, hətta raketlə dağıdılması mümkün olmayan dəmir betonla örtülmüş və döyüş texnikasının yerləşdirildiyi hündür tunelləri torpaqlarımızın dərinliklərinə doğru davam etdirmək olmuşdur. Arxada gizlənən, Suriyadan gətirilən iki min PKK-nın üzvlərindən və dünyanın başqa ölkələrindən gələn erməni kökənli terrorist qüvvələrdən ibarət "erməni ordusu" adı altında hərbi birləşmə yaradan da Azərbaycanın müstəqilliyini həzm edə bilməyən həmin xarici qüvvələrdir. Tərtib edilmiş bu hərbi-strateji planla tarixən erməniləri "peşka" kimi qabağa verən bu xain qüvvələrin yolu Xəzərin zəngin sərvətinə doğru yönəldilmişdi. Televiziya vasitəsilə düşmən ordu generallarının "Biz Bakıya gedəcəyik",-deyə dünyaya bəyan etdikləri fantastik iddia da bunu sübut edir.

**- Vətən savaşında erməni və onların havadarlarını tam sarsıldan sizcə nə oldu?**

- Azərbaycan ordusunun "Xüsusi Təyinat"lılardan ibarət olan azsaylı dəstə gecənin qaranlığında düşmənin gözləmədiyi istiqamətdən - insanın qalxması mümkünsüz olan şüş divarlı hündür dağdan çöl pişiyi cəsurluğu ilə qalxıb, sakitcə Şuşaya "sızdı". Bıçaq və yüngül silahla silahlanmış igidlərimiz Şuşanın böyük hərbi texnika və çoxsaylı canlı qüvvə ilə müdafiəsində dayanmış düşmənə göz açdırmadan, insanı heyrətə gətirəcək ağılasığmaz qısa əməliyyatla qədim şəhərimizi işğaldan azad etdilər.

Dünya hərb tarixində müstəsna yeri olan Şuşa əməliyyatından sonra Azərbaycan ordusunun qarşısı alınmaz olduğunu görən erməninin havadarları 30 il apardıqları səmimiyyətdən uzaq bütün gedişlərinin boşa çıxdığını gördü, daxildən silkələndi və "ayıldı". Onlar usta siyasətlə vaxt itirmədən 200 il imperiyanın Qafqaz dayağı olan Ermənistanı, özlərinin dediyi kimi, "intihardan" xilas etmək üçün gecənin bir vaxtı qalib ordunun sərkərdəsi Müzəffər Ali Baş Komandan İlham Heydəroğluna haray çəkdi, Nikol Paşinyandan əvvəl ağ bayraq qaldırmağa məcbur oldu. Bununla da istedadlı komandan İlham Heydəroğlunun sərkərdəliyi altında Azərbaycan ordusunun dünya hərb tarixinə yazdığı, güclü dövlətlərin görkəmli strateqlərinin marağına səbəb olan, 44 günlük ilk əfsanəvi tarix başa çatdı.

**- Sonda nə demək istərdiniz ?**

- Əzizimiz Ali Baş Komandanımız, Ağrı dağı vadisində Oğuz türk torpaqlarının bir parçasında babalarımızın intizarla gözləyən ruhunun bizi harayladığını yaxşı bilir!!! Və mən əminəm ki, ömrünü Azərbaycanına fəda etmiş ümummilli liderin ruhu bundan sonra daha da şad olacaq. Mən əminəm ki, bütün milli maraqlarımız və dədə tarixin itirilmiş səhifələrini tam zəfərlə bərpa edənə qədər " DƏMİR YUMRUQ" düşmənin başı üzərində olacaq! Bu şərəfli, müqəddəs, Azərbaycan türkünün babadan qalma miras tarixinə sahiblənmə yolunda müzəffər Ali Baş Komandan İlham Heydəroğlunu və Şanlı ordumuzu Tanrım qorusun!!!

# Erməni keşişin yalanları ifşa olundu!

## Azərbaycanın İtaliyadakı səfiri erməni keşişin yalan iddialarına cavab verib

***İtaliyada dini çevrələrə bağlı olan "Riforma.it" qəzetində dərc olunmuş Böyük Britaniya və İrlandiyanın erməni kilsəsinin primatı, yepiskop Hovakim Manukyanun Azərbaycana qarşı yalan iddialarına cavab olaraq həmin qəzetdə ölkəmizin İtaliyadakı səfiri Məmməd Əhmədzadənin məktubu dərc edilib.***

AZƏRTAC xəbər verir ki, məktubunda diplomat əvvəlcə Azərbaycanda "Dağlıq Qarabağ" adlanan inzibati ərazi vahidinin olmadığını, ümumilikdə ölkəmizin ərazisinin 20 faizini təşkil edən Qarabağ və Şərqi Zəngəzurun 1990-cı illərin əvvəllərində Ermənistanın hərbi cəhətdən işğal etdiyini diqqətinə çatdırıb.

Erməni keşişin münaqişənin nəticələrinin sakinlərin çiyinlərində olması fikirlərinə münasibətdə səfir bildirib ki, 30 ildir münaqişədən əziyyət çəkənlər, əslində, etnik təmizləmə qurbanı olan, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində evlərindən didərgin salınmış, hətta yaxınlarının məzarlarını belə ziyarət etməkdən məhrum edilmiş 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünlərdir. Diplomat qeyd edib ki, 30 ilə yaxın ağrı-acılardan sonra Azərbaycan Ermənistanın məhəl qoymadığı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin tələb etdiyi kimi öz ərazilərini azad etməyə və ərazi bütövlüyünü bərpa etməyə müvəffəq olub.

Diplomat əlavə edib ki, bu gün azad edilmiş ərazilərdə Ermənistanın 30 illik işğal vaxtı həmin yerlərin Azərbaycana məxsusluğunun izlərini sistemli şəkildə silərək misli görünməmiş dağıntılar törətməsinin şahidi oluruq. Bildirilib ki, işğal dövründə Ermənistan bu əraziləri dünyanın ən çox minalanmış bölgələrindən birinə çevirib və ərazilərin azad edilməsinə baxmayaraq, bu gün də minalar mülki azərbaycanlıların həyatına son qoymağa davam edir. Bu xüsusda, diplomat ölkəmizin öz resursları hesabına 1 milyondan çox azərbaycanlı məcburi köçkününün öz evlərinə qayıtması üçün vacib olan həmin ərazilərdə irimiqyaslı minatəmizləmə və yenidənqurma işləri ilə məşğul olduğunu diqqətə çatdırıb.




Üçtərəfli Bəyanatdan irəli gələrək, bütün erməni müharibə əsirlərinin Azərbaycan tərəfindən sərbəst buraxıldığını xatırladan səfir, bu gün Azərbaycanda saxlanılan ermənilərin üçtərəfli Bəyanatın imzalanmasından sonra razılaşmaya zidd olaraq Azərbaycan ərazisinə qanunsuz daxil olduqlarını və mülki azərbaycanlılara qarşı terror aktları törətdiklərini bildirib.

Həmçinin məktubunda ölkəmizin multikultural bir ölkə olduğunu bildirən diplomat Azərbaycanda bütün dinlərə və etnik qruplara hörmətlə yanaşıldığını, bu yaxınlarda İtaliyanın G20-yə sədrliyi çərçivəsində Bolonyada keçirilmiş "G20 VIII Dinlərarası Forum"da ölkəmizin müxtəlif dini icmaların rəhbərlərindən ibarət geniş nümayəndə heyətinin iştirakının bunun bariz sübutu olduğunu vurğulayıb. Azərbaycanda bütün dinlərə məxsus maddi irsin qorunduğunu, daim bərpa və inkişaf etdirildiyini xatırladan səfir paytaxt Bakının mərkəzində yerləşən erməni kilsəsinin bu yaxınlarda bərpa olunduğunu və orada erməni dilində 5 minədək kitabın saxlanıldığını deyib.

Səfir qeyd olunanların fonunda, əksinə, Ermənistanın istər işğala məruz qalmış Azərbaycan torpaqlarında, istərsə də Ermənistan ərazisində Azərbaycan xalqına məxsus bütün tarixi, mədəni və dini irsə qarşı soyqırımı törətdiyini vurğulayıb. İşğal vaxtı Ermənistanın həmin ərazilərdə xristian abidələrinə belə mərhəmət göstərmədiyini deyən diplomat Xocavənd rayonundakı Rus Pravoslav Kilsəsinin dağılmış görkəminin və Qafqaz Albaniyasına məxsus çoxsaylı kilsələrin erməniləşdirilməyə məruz qalmasının Ermənistanın xristian dünyasında özü ilə bağlı uydurduğu imiclə ziddiyyət təşkil etdiyini bildirib.

Məktubunun sonunda müharibənin artıq geridə qaldığını və münaqişənin bitdiyini bildirən səfir Ermənistanın Azərbaycana qarşı revanşist düşüncələrdən, yalan propaqandadan əl çəkməli, bölgədə davamlı sülh və təhlükəsizlik üçün vacib olan yeni reallıqla barışmalı olduğunu vurğulayıb.

---

# "Eureporter": Regionda sülhü və təhlükəsizliyi qorumağın yeganə yolu qarşılıqlı əməkdaşlığın daha da möhkəmləndirilməsindən keçir

***Avropa İttifaqının nüfuzlu "Eureporter" informasiya və analitik nəşrində Milli Məclisin deputatı Məzahir Əfəndiyevin "Mədəniyyətlərarası dialoq sülhün açarıdır" sərlövhəli məqaləsi dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü nəticəsində ərazilərimizin demək olar beşdəbirinin işğal olunduğu bildirilib. Müəllif yazır ki, işğal bu ərazilərdən təxminən bir milyon azərbaycanlının kütləvi etnik təmizlənməsi və digər ağır cinayətlərin törədilməsi ilə müşayiət olundu.***

2020-ci il noyabrında 10-da yayılan informasiyaların əksəriyyətinin sərlövhəsi belə idi: "Azərbaycanla Ermənistan arasında altı həftə davam edən döyüşlərdən sonra münaqişə tərəfləri arasında müqavilə imzalandı. Azərbaycan böyük Qələbə qazandı".

Lakin əsl qələbə 30 illik vətən həsrəti ilə yanan xalqımızın Ermənistanın işğalına son qoyaraq doğma torpaqlarına qovuşması idi. Azərbaycan, nəhayət, öz suverenliyini və ərazi bütövlüyünü bərpa etdi.

Məğlub Ermənistanın kapitulyasiya aktı Şuşanın Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad edilməsindən qısa müddət sonra imzalandı. Ermənistanın baş naziri Nikol Paşinyanın qeyd etdiyi kimi, Ermənistanın şanlı Ordumuz qarşısında məğlubiyyəti qəbul etməkdən başqa çıxış yolu yox idi. Buna görə də işğalçı tərəf məğlub olduğunu etiraf etdi və münaqişə rəsmi olaraq dayandırıldı.

1993-cü ildə BMT Təhlükəsizlik Şurası Azərbaycana qarşı güc tətbiqini və ərazilərinin işğalını pisləyən, Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını təsdiqləyən qətnamələr qəbul etdi. Təhlükəsizlik Şurası həmin qətnamələrdə Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha təsdiqləyərək işğalçı qüvvələrin Azərbaycanın işğal edilmiş bütün ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etdi. Digər beynəlxalq təşkilatlar da eyni mövqedən çıxış etdilər. Lakin uzun illər ərzində Ermənistan beynəlxalq birliyin bu mövqeyinə məhəl qoymayaraq Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini işğal altında saxlamaqda davam edirdi. Hətta 2019-cu ildə Ermənistanın müdafiə naziri "yeni ərazilər üçün yeni müharibə" adlı yeni təcavüzkar iddia səsləndirmişdi.

İstər müharibə zamanı, istərsə də müharibədən sonra Prezident İlham Əliyev münaqişənin dinc yolla nizamlanması üçün yaradılmış, Fransa, Rusiya və ABŞ-ın həmsədrlik etdiyi ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyini dəfələrlə vurğulayıb.

Azərbaycan torpaqlarının 30 illik işğalı və dünya birliyi tərəfindən görünməyən ədalətsizlik 2020-ci ilin dekabr ayının ilk günündə sona çatdı. Hazırda Azərbaycan hökuməti ərazilərin bərpası və köçkün mülki əhalinin geri qaytarılması prosedurunun gücləndirilməsini təmin edəcək sistem üzərində işləyir. Lakin işğal müddətində Ermənistanın azad edilmiş ərazilərimizə vurduğu ziyanı bərpa etmək uzun və çətin proses olacaq.

Ərazilərimizin 27 il ermənilər tərəfindən qanunsuz olaraq işğal edilməsi əsrlər boyu qoruyub saxladığımız dini obyektlərin, muzeylərin, teatrların, kilsələrin, məktəblərin, qədim mağaraların və hətta şəxsi evlərin dağıdılması ilə nəticələndi. Ağdam, Qubadlı, Füzuli, Zəngilan, Cəbrayıl kimi şəhərlər Xirosima tipli xarabalıqlara çevrildi. Kənd təsərrüfatı torpaqları tam yararsız hala düşdü. Ermənilərin meşələri kütləvi məhv etməsi də ekoloji terrorla nəticələndi.

Qələbədən sonra təkcə Azərbaycan Ordusu deyil, bütün dünya Qarabağın zəngin və ən firavan bölgələrinin Ermənistan tərəfindən necə məhv edildiyinin şahidi oldu. 2020-ci il oktyabrın 3-də Suqovuşan Azərbaycan Ordusu tərəfindən azad edildikdən sonra 30 ilə yaxın bir müddət ərzində susuz qalan Tərtər çayı yenidən bölgəyə həyat bəxş etməyə başladı.

Azərbaycanın Cənubi Qafqazda sülhün və sabitliyin möhkəmləndirilməsinə yönəlmiş faydalı, yeni regional əməkdaşlıq qurmaq səylərinə baxmayaraq, Ermənistan beynəlxalq humanitar hüquqdan və üçtərəfli Bəyanatdan irəli gələn öhdəliklərini yerinə yetirməyib.

Xüsusi narahatlıq doğuran məsələ Ermənistanın azad edilmiş torpaqlarda minalanmış ərazilərin xəritələrini beynəlxalq humanitar hüquqa uyğun olaraq Azərbaycan tərəfinə verməkdən imtina etməsidir.

Müəllif vurğulayıb ki, Türkiyənin, beynəlxalq təşkilatların, ölkəmizdə akkreditə olunmuş beynəlxalq və regional qurumların bölgədə əməkdaşlığın qurulmasında və dayanıqlı edilməsində rolu əvəzsiz olacaq. Bu baxımdan dünyanın nüfuzlu beynəlxalq təşkilatlarından sayılan, münaqişələrin qarşısının alınması və sülh dialoqunda hər zaman mühüm rol oynayan Avropa İttifaqının bu gün Cənubi Qafqaz regionu ilə əlaqələri mühüm əhəmiyyət bir önəm daşımaqdadır. Bu, regiona səfəri zamanı Avropa İttifaqının (Aİ) Genişlənmə və Qonşuluq Siyasəti üzrə komissarı Oliver Varhelyinin Azərbaycanda keçirdiyi görüşlərində səsləndirdiyi fikirlərdə də əksini tapıb.

Daha sonra Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel regiona səfəri çərçivəsində Azərbaycanın Avropa üçün önəmini, enerji təhlükəsizliyinə verdiyi töhfəni xüsusi vurğulayıb. Onun görüşlərin nəticəsi olaraq birgə keçirilən mətbuat konfransında "Avropa İttifaqı Cənubi Qafqazda sülhün bərqərar olunmasında maraqlıdır" fikri regionda sülh, əməkdaşlıq və qurucuşluqda maraqlı olan ölkəmizin mənafeyi ilə üst-üstə düşür.

Məqalədə xüsusi vurğulanır ki, Azərbaycan üçün ən mühüm nailiyyətlərdən biri Qarabağın incisi kimi tanınan və bölgənin mədəniyyət mərkəzi olan Şuşanın azad edilməsidir. Bildirilir ki, Qarabağda sürətli bərpa və yenidənqurma işləri aparılır. Bildirilir ki, görülən işlərin miqyası burada tezliklə böyük beynəlxalq tədbirlərin keçirilməsi üçün lazımi imkanların yaradılacağını deməyə əsas verir.

Xüsusi qeyd olunmalıdır ki, Azərbaycanda keçirilən mədəniyyətlərarası dünya forumları, UNESCO ilə əməkdaşlıq, beynəlxalq konvensiyaların ölkəmizdə tətbiqi, milli mədəniyyətimizin dünyaya tanıdılmasında göstərilən səylər əsrlərdən bəri dünyanın mədəni irsinə böyük töhfələr bəxş etmiş multikultural Azərbaycan xalqının bu gün də mədəni diplomatiyaya verdiyi dəyərin göstəricisidir. Bu gün doğma Qarabağımızda, Şuşada bu irsin qorunub saxlanılması təkcə Azərbaycanın deyil, UNESCO-ya üzv dövlətlərin də öhdəliyidir.

Yazıda vurğulanır ki, bölgədəki son hadisələr Azərbaycanın qalib olduğunu və artıq regionda yeni reallıqların yarandığını açıq-aşkar göstərir. Ermənistan indi Azərbaycanın hüquqi və qanuni iddialarını əks etdirən yeni reallıqları qəbul etməli olacaq. Beləliklə, sülhü və təhlükəsizliyi qorumağın yeganə yolu region dövlətlərinin qarşılıqlı əməkdaşlığının daha da möhkəmləndirilməsindən keçir.

# “44 günün hər biri xalqımızın tarixinə qızıl hərflərlə yazılıb”

***“Əlbəttə ki, Azərbaycan xalqının tarixində çox belə qələbələr olub. Yəni, tarixən bizim qələbələrimiz çox olub. Sözsüz ki, müasir dövrdə artıq, belə bir mürəkkəb və ziddiyyətli bir dövrdə 44 günlük Vətən müharibəsində qazanılan qələbənin əhəmiyyəti qat-qat çoxdur. Çünki 30 il ərazilərinin işğal olunması faktı ilə barışmayan Azərbaycan nəhayət ötən il sentyabrın 27-də, özü də birbaşa olaraq Ermənistan tərəfindən hərbi təxribatlara cavab olaraq əks əməliyyatlara keçdi və 44 gün ərzində elə bir gün olmadı ki, Ermənistan silahlı qüvvələri, daha doğrusu, Ermənistanın təcavüzkar qüvvələri yuvasına qədər başı əzilə-əzilə qovulmasın." Bu sözləri SİA-ya verdiyi açıqlamasında Sahil İsgəndərov deyib.***





Politoloq vurğulayıb ki, bu baxımdan bu qələbənin Azərbaycan xalqı üçün, Azərbaycan tarixi üçün əhəmiyyəti böyükdür və 44 günün hər biri bizim xalqımızın tarixinə, salnaməsinə qızıl hərflərlə yazılıb.

"Məsələ burasındadır ki, Azərbaycan bu qələbə ilə yalnız öz ərazilərini işğaldan azad etməsini rəsmiləşdirmədi. Azərbaycan bununla erməni faşizminin konkret olaraq daha da geniş qolbudaq atmasının qarşısını aldı. Azərbaycan bununla Ermənistan tərəfinin digər ölkələrə, sərhəd ölkələrə ərazi iddialarının qarşısına sipər çəkdi. Çünki biz bilirik ki, Ermənistanın ərazi iddiaları yalnız Azərbaycana və Türkiyəyə deyil. Bu ərazi iddiaları həm Gürcüstana, həm Rusiyaya, həm də İrana qarşıdır. Mən ona görə də düşünürəm ki, Türkiyə ilə bağlı məsələlər məlumdur, amma fikrimcə, nə Gürcüstan, nə Rusiya, nə İran arxayın olmamalıdır ki, bu yalnız Azərbaycanın problemi idi və Azərbaycan bu problemi həll etdi. Mən düşünürəm ki, problemlər hələ qabaqdadır və Azərbaycan problemin birinci mərhələsini həll edib. Azərbaycan ərazilərini işğaldan azad edib, amma kimlərsə düşünürlər ki, gələcəkdə onsuz da hansısa yolla yenə bu erməni faşizmini yenə Azərbaycana qarşı yönəldib özümüz rahatlanacağıq. Onlar belə düşünməsinlər.

Mən düşünürəm, əlbəttə ki, Azərbaycan xalqının bu tarixi qələbəsi konkret olaraq yalnız Azərbaycanda deyil, bütün regionda sülh və əməkdaşlıq üçün yaşıl işıq yandırıb, geniş yol açıb. Amma məsələ burasındadır ki, bu məsələdə yalnız Azərbaycan, yaxud Türkiyə, ya da Rusiya maraqlı olmamalıdır. Yalnız onlar buna can atmamalıdırlar. Regionun digər dövlətləri də maraqlı olmalıdırlar. Azərbaycan sözsüz ki, öz ərazilərində dinc quruculuq işlərini, abadlıq işlərin aparacaq, öz məcburi köçkünlərini oraya qaytaracaq və Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, orada bizim işlər daha geniş vüsət alacaq. Amma bu yalnız Azərbaycan üçün deyil. Azərbaycan bunu, digər region ölkələri üçün də bu yolu açıb. Mən düşünürəm ki, konkret olaraq bu məsələnin tarixi əhəmiyyəti bundadır.

Bu qələbənin tarixi əhəmiyyəti ondadır ki, ən azı neçə onilliklər bundan sonra Azərbaycan erməni faşizminin başını və quyruğunu elə kəsib ki, o inkişaf eləməsin. Amma sözsüz ki, geosiyasi proseslərdə hər şey daimi deyil. Gələcəkdə kimlərsə, hansısa oyunbazlıqlar kontekstində, yəni yenidən erməni təcavüzünün, erməni faşizminin baş qaldırmasına cəhd göstərsələr, Azərbaycanın dəmir yumruğu həmişə hazırdır. Amma məsələ burasındadır ki, region dövlətləri də məhz bu kontekstdə Azərbaycanla vahid mövqedən çıxış etməlidirlər. Mən sizi inandırıram, əgər vaxtında, yəni 30 il əvvəl region dövlətlərinin hərəsi öz maraqları kontekstində erməni faşizmini, erməni təcavüzünü dəstəkləməsəydilər, ya region dövlətləri, ya kənarda olan dövlətlər kömək etməsəydilər erməni təcavüzü, erməni faşizmi bu həddə gəlib çatmazdı ki, 30 ildən artıq Azərbaycan əraziləri işğal altında qalaydı. Azərbaycan şükürlər olsun ki, öz qələbəsi ilə bunu həll edib.

Bu tarixi əhəmiyyətli qələbə bizim salnaməmizə yazılıb, artıq o salnamədən çıxası deyil və bunun özü gələcək nəsillər üçün də bir növ örnəkdir. Bu, bizim gələcək nəsillər üçün bir göstəricidir ki, Azərbaycan həmişə humanist bir dövlət olub, bununla bərabər sülhsevər bir dövlət olub və həmişə ilk növbədə üstünlüyü verib iqtisadi inkişafa, qarşılıqlı səmərəlilik əsasında əməkdaşlığa, onu da bu gün Azərbaycan nümayiş etdirir. Azərbaycan bunu hamıya da təklif edib. Yəni, bu, yalnız Azərbaycanın təklifi deyil. Bu məsələdə Azərbaycanı həm qardaş Türkiyə, həm Rusiya dəstəkləyib.



İndi qaldı digər dövlətlərə, ilk növbədə, Ermənistana, mən düşünürəm ki, Ermənistanın başqa çıxış yolu olmayacaq. Çünki, Azərbaycanın tarixi qələbəsi Erənistana göstərdi ki, Ermənistan yalnız və yalnız xarici havadarları, onları başqalarının üstünə kısqırdanların hesabına nə isə əldə edə bilir. Amma indi vəziyyət, beynəlxalq siyasi konyunktura elədir ki, onlar da Ermənistana bu dəstəyi vermirlər. Çünki Ermənistanın təcavüzkar siyasətinin girovuna və ümumiyyətlə, həmişə ərazi iddiası siyasətinin gorovuna çevrilmək istəmirlər. Yəni, Ermənistanın ərazi iddialarını heç kim dəstəkləmək istəmir. Niyə istəmirlər bunu? Çünki, Azərbaycan göstərdi ki, həmişə Ermənistanın bu iştahasının qarşısını alacaq, onun dişinin üstündən vurub geri qaytaracaq. Yəni, ola bilər ki, bu gec, ya tez ola bilər, amma gec-tez bu baş verəcək. Bax Azərbaycanın tarixi qələbəsinin əhəmiyyəti bundadır. Yəni, Azərbaycan hamıya, həm Ermənistana, həm Ermənistanın havadarlarına, həm bu regionda müxtəlif geosiyasi maraqları olan dövlətlərin hamısına göstərdi ki, heç vaxt onlar düşünməsinlər ki, Azərbaycan sakitçiliklə, rahatçılıqla oturub torpaqlarının itirilməsinə və ərazilərinin işğalına sakit baxacaq. Gec-tez bunlar bu cavabı alacaqlar. Amma gec olanda daha güc olacaq. Bax əsas məsələ budur", deyə politoloq Sahil İsgəndərov bildirib.

***İnam Hacıyev***

# Andrey Korıbko: “Ermənistan Azərbaycanı provakasiyaya çəkən regional destabilizatordur”



***Amerikalı politoloq Andrey Korıbko "Caliber" analitik mərkəzinə müsahibəsində Qafqazdakı mövcud geosiyasi vəziyyət və gedən proseslər haqda fikirlərini bildirib. Müsahibəni təqdim edirik.***

**- Sizcə, 44 günlük müharibə Qarabağ münaqişəsinə birdəfəlik son qoydumu?**

- Atəşkəsin Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında imzalanan 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatla razılaşdırılmasına baxmayaraq, İrəvanın şərtlərə tam əməl etməkdən imtina etməsi səbəbindən gərginlik hələ də davam edir.

Ermənistan regional nəqliyyat dəhlizlərinin qarşısını almaq istəyir və son bir il ərzində bir neçə sərhəd təxribatı təşkil edib. Hazırda bu problemlər həll edilə bilən görünür. Rusiya İrəvanı bəyanatın şərtlərinə əməl etməyə sövq etməkdə müsbət rol oynaya bilər.

Kreml regional sabitliyin tərəfdarıdır və bunu təhdid edə biləcək hər şeydən çəkinir. Təəssüf ki, Ermənistan yenə də Azərbaycanı təhrik edərək, imzalanan bəyanatın şərtlərinə tam əməl etməkdən imtina edərək, regional de-stabilizator rolunu oynayır.

Qarabağ problemi həll edilib, amma tam deyil. Qeyd etmək lazımdır ki, bu mərhələdə proses əvvəlkindən daha çox siyasi yolla idarə olunur.

**- Hərbi əməliyyatların başlaması və buna uyğun olaraq Azərbaycanın qələbəsi şəxsən sizin üçün gözlənilən idimi?**

- Azərbaycanın qələbəsinə heç vaxt şübhə etməmişəm. Onun hərbi üstünlüyü və həqiqətən də torpaqlarının azad edilməsi uğrunda ədalətli mübarizə aparan Azərbaycan hərbçilərinin döyüş ruhu azadlıq savaşında uğurla taclandırılmalı idi.

Mən, əksər müşahidəçilər kimi, işğalçı Ermənistan qüvvələrini parlaq şəkildə məhv etməyənə qədər Azərbaycanın təsirli PUA donanması haqqında bilmirdim. Bu silah əslində bir oyun dəyişdirici idi və savaşı çoxlarının gözlədiyindən çox daha tez bitirdi.

**- Ermənistan niyə sülh müqaviləsinin imzalanması prosesini ləngidir?**

- Baş nazir Paşinyan, onu əraziləri "satmaqda" günahlandıran ultra-millətçi qüvvələr tərəfindən böyük təzyiq altındadır. Bir çoxları onu müharibədə məğlubiyyətin əsas günahkarı hesab etsələr də, əslində ermənilər ona minnətdar olmalıdırlar. Üçtərəfli atəşkəs bəyanatına imza atmasaydı, Ermənistan silahlı qüvvələri Azərbaycan tərəfindən tamamilə məhv ediləcəkdi. Paşinyan bununla razılaşaraq Ermənistan ordusunun qalıqlarını xilas etdi.

Buna baxmayaraq, Paşinyana qarşı əraziləri "satmaq" ittihamları bir çox uğursuzlar üçün cazibədardır, çünki bu, müharibənin nəticələrinin gələcəkdə nə vaxtsa yenidən nəzərdən keçirilə biləcəyinə dair yalan ümid verir, təbii ki, əgər hakimiyyətə bir millətçi lider gətirə bilsələr.

Sualınıza qayıdaraq deyim ki, Paşinyan ultramillətçi qüvvələrin idarəolunmaz iğtişaşlara səbəb olacağından və hətta sülh müqaviləsi imzalayacağı təqdirdə ona qarşı öz "rəngli inqilabını" təşkil edə biləcəyindən qorxur.

İmzanı niyə gecikdirdiyini bu izah edir. Çox güman ki, silahlı qüvvələrinin sədaqətini qiymətləndirir, çünki içərisində ona qarşı çevriliş planlaşdırmağa cəhd edə biləcək ultranasionalist ünsürlər var, baxmayaraq ki, indi bu risk əvvəlkindən qat-qat aşağıdır. Paşinyan sülh müqaviləsi imzalamağa qərar verərsə, silahlı qüvvələrin və polisin üsyan etməyəcəyinə və hər hansı bir "rəngli inqilabı" effektiv şəkildə boğa biləcəyinə tam əmin olduqda bunu edəcək.

**- Sizcə, yaxın gələcəkdə yeni müharibənin baş verməsi ehtimalı varmı?**

- Məncə yoxdur. Azərbaycanla Ermənistan arasında yeni müharibənin başlayacağı ehtimalı azdır. Bu halda erməni ordusunun kiçik qalıqları da tamamilə məhv ediləcək. Rusiya bunu bilir və buna görə də Ermənistanın ultra-millətçi intihar impulslarının qarşısını almaq üçün əlindən gələni edəcək.

***Tərcümə - Elçin Bayramlı***

# “Şəhadətə qovuşan oğullarımızı bütün Azərbaycan tanıyır"



**“Zabit qabaqda olar deyib, könüllü XTQ-yə qoşuldu”**

”Şəhidlər ölməz, vətən bölünməz”, - deyiblər. Müdrik ifadədir. Torpağı bölünməyə qoymayan igid, ərən oğullarımız var və heç zaman Odlar Diyarı parçalanmaz, yağının işğalında qalmaz. Özü də sayı minlərlə, milyonlarladır ərənlərimizin. ”Vətən dardadır” sözünü eşidər-eşitməz onun səsinə səs verib, bu torpağın hər qarışı var olsun, - deyə, onu qanları ilə suvaran oğulların diyarı olan bu məmləkət heç zaman basılmaz.44 günlük Vətən müharibəsində torpaq uğurunda mücadiləyə qalxaraq, erməni işğalında olan torpaqlarımızın azad olunması yolunda odalov içinə atılan övladlarımızla yaşadığımız yüzilliyin Zəfər tarixini yazdılar. Müharibənin dəhşətlərinin nə olduğunu bilsələr də Azərbaycan Prezidenti, Ali Baş Komandanın çağırışına cavab olaraq, bir yumruq ətrafında birləşdilər. Sanki bu günü çoxdan gözələyirmiş kimi. Bəli, bütün vətən övladları bu çağırışı səbirsizliklə gözləyirdilər. Buna ac, möhtac idilər. Axı, işğalda olan əzəli torpaqlarımız öz sakinlərinin yolunu səbirsizliklə gözləyirdi. Dövlət başçısının həyata keçirdiyi siyasət nəticəsində hər açılan günümüz bizi bu torpaqlara bir addım da yaxınlaşdırırdı.

### ”TƏKİ VƏTƏN SAĞ OLSUN!”,- DEYİRLƏR

Vətən müharibəsində iştirak edən oğullarımız sırasında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin leytenantı, sonralar isə Vətən müharibəsinin şəhidi kimi tariximizə düşəcək Ceyhun Zeynal oğlu Dünyamalıyev də adı var. ”Zabit qabaqda olar deyib”, könüllü XTQ-yə qoşuldu Ceyhun Dünyamalıyev.Maraqlıdır, igid oğullarımızdan biri olan Ceyhunun həyat yolu haradan və necə başlayıb? Belə oğulların həyat hekayəsini vərəqləndikcə ana laylasından, ana öyüdündən vətənə olan sevginin aşılandığını görürük. Mərd, qorxmaz analarımız beşik başından övladlarına vətən sevgisini ötürərək, onları mübariz, qorxmaz, vətənə əmanət olaraq böyüdürlər. Kim bilir gələcəkdə hansı bir keşməkeşli həyat onları gözləyir. Tariximizdən bizə belə anaların fədakarlığı aşılanır. Belə analar heç aman əyilməzlər, vüqarları ilə dünya qadınlarına nümunə olublar. Bu gün şəhid anası olan ANALARımız kimi. Hansının qapısını döysək, məğrur bir ana ilə qarşılaşacağıq. ”Təki vətən sağ olsun!”- deyirlər. Nə qədər böyük hikmət var bu ifadə. Qürur var bu anaların simasında, səsində. Sınmayan qürur qarşısında baş əyirsən, səcdə edirsən. İlahi, anadakı vüqara, gücə sənə bax! Üç rəngli Azərbaycan bayrağına bürünmüş oğul cəsədini necə qarşılayır. Oğulu vətən üçün böyütmüşəm,- deyirlər. Ceyhun Zeynal oğlunun anası kimi. Bir ana ilə həmsöhbət olmaq, onun hissləri qarşısında davam gətirmək çətin olsa da Azərbaycan Qadınının haqqında deyilən fikirlərin necə də yerində söylənildiyinin şahidi olursan. Ceyhunun anası Gülnarə Dünyamalıyevanın fikirlərini ”Səs” qəzeti üçün qələm almaq, ana hisslərini milyonlarla oxucularla bölüşmək məsuliyyətdir. Ana danışır və onun simasında, çöhrəsində yaranan ifadələri duymaq və yeri gələndə bu hissləri də qələmə almaq məqamıdır. Sanki dünyanın iki zolağı, iki hissi gəzir bu dünyada. Kədər və sevinc. Övlad itkisi, digər tərəfdən isə Şəhidlik zirvəsi, tarixi Zəfərimiz. Hər kəsə, hər xalqa nəsib olmayan bir yüksəklik, bir Qələbəlik. Ana danışır. Ceyhun Dünyamalıyevin dünyaya gəlməsindən, aldığı təhsilindən söz açır.

### ŞƏHİDLƏRİMİZ BİZİM SINMIŞ VÜQARIMIZI ÖZÜMÜZƏ QAYTARDILAR

İndi hər ili çözələdikcə bir obraz göz önünə gəlir: məktəbli, tələbə, hərbçi, ŞƏHİD. Bir insanın ömür naxışıdır. 1996-cı il oktyabrın 15-də Naxçıvan Muxtar Respublikasının Culfa şəhərində anadan olub. Gülnarə ana deyir ki, Ceyhun çox ağıllı, tərbiyəli, savadlı övlad idi: ”Biz bir valideyn kimi hər zaman ondan razı olmuşuq. Ailədə də, məktəbdə də hər zaman özünü nümunəvi şəxs kimi aparıb. Orta məktəbdə oxuyarkən öz savadı və nizam-intizamı ilə hər zaman məktəb kollektivinin sevimlisi olub. Daha sonra orta məktəbi bitirdikdən sonra Heydər Əliyev adına Hərbi Liseydə və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) ali hərbi təhsil alıb. Bu illər ərizində də hər zaman bizlərdən uzaqda olmasına baxmayaraq, qayğısını, diqqətini ailəsindən əsirgəməyib. Daha sonra Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etməyə başlayıb. Ceyhun çox vətənpərvər övlad idi. Hər zaman deyirdi ki, biz tarixi torpaqlarımızı düşmən tapdağından azad etməliyik”.



### BÜTÜN DÜNYA BU CƏSARƏTƏ, BU QƏHRƏMANLIĞA VƏ DƏYANƏTƏ ŞAHİDLİK ETDİ

Ana oğlunun söylədiklərini danışdıqca bitib-tükənmir. Bir insanın vətən sevgisindən danışır. Ömründən düşən yarpaqları oğul ömrünə calamışdı. İndi isə şəhid oğuldan danışır. Mərd övladından, xalqın övladından, Vətən oğlundan. Gülnarə ana dünənə boylanır. Ceyhunun söylədi fikirləri bizimlə bölüşür. ”Qarabağ bizim əbədi və əzəli torpağımızdır, biz bu işğalla heç bir zaman barışa bilmərik” - dəyərdi Ceyhun həmişə. Ana danışır. Sanki bir dastan söyləyir bizlərə: ”44 günlük Vətən müharibəsi başlayanda Ceyhun da digər qəhrəman oğullarımız kimi Vətənimizin müdafiəsinə qalxdı, vuruşdu, qanı, canı bahasına Qarabağımızı erməni işğalından azad etdi. Telefon danışığımız zamanı deyirdi ki, zabit qabaqda olmalıdır. O, çox mübariz və qətiyyətli idi. Bütün müsbət xarakteri, xoş ünsiyyəti ilə təkcə ailəsi tərəfindən deyil, onu tanıyan hər kəs tərəfindən sevilirdi. İndi isə övladımı bütün Azərbaycan tanıyır və onunla qürur duyur. Bütün şəhidlərimiz bizim qürur və iftixar mənbəyimizdir. Onların əziz xatirəsi bizlərin qəlbində daim yaşayacaq. Bir ana kimi istəyirəm ki, xalqımız qəhrəman şəhidlərimizi hər zaman, hər an yad etsin, gənclərimiz öz əməlləri ilə onların adlarını daim uca tutsunlar. Şəhidlərimiz bizim sınmış vüqarımızı özümüzə qaytardılar, ən şirin pay olan öz canlarını bu Vətən uğrunda, bu xalq uğrunda fəda etdilər. Bütün dünya bu cəsarətə, bu qəhrəmanlığa və dəyanətə şahidlik etdi. Bütün dünya gördü ki, Azərbaycan xalqı heç bir zaman sınmayacaq, əyilməyəcək, öz qətiyyəti və əmkarlığı ilə əsl nümunədir”.

### ŞƏHİD ANALARININ YEGANƏ TƏSƏLLİSİ TARİXİ ZƏFƏRİMİZDİR



Şəhid anası, həmçinin bildirdi ki, Ceyhunun və onun simasında bütün şəhidlərimiz daim xalqımız tərəfindən xatırlanmalı, yad edilməli, onların qəhrəmanlıqları və cəsarəti bütün dünyaya göstərilməlidir: ”Biz şəhid anaları və şəhid ailələri o zaman təsəlli tapırıq ki, bizim övladlarımız Vətənimiz, torpağımız uğrunda vuruşub, canını fəda edib. Şəhidlərimiz haqq mübarizəsində ən uca zirvə olan şəhadət zirvəsinə ucalıblar. Onlar heç bir zaman unudulmamalı və gələcək nəsillərə tanıdılmalıdırlar. Bizlər şəhid balalarımız yad edilərkən, xatırlanarkən rahatlıq tapırıq. Şəhid yoldaşını unutmayan və onun əziz xatirəsinə ehtiram əlaməti olaraq Azərbaycanın hərbi pilotları səmada olarkən Xüsusi Təyinatlı Qüvvələrin şəhid leytenant Dünyamalıyev Ceyhun Zeynal oğlunun şərəfinə onun adı yazılmış vərəqi səmada nümayiş etdirmələri bizlər üçün çox qürurverici oldu”.

Şəhid anası daha sonra bütün şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı arzuladı. Bildirdi ki, Qarabağ bizim tarixi torpağımızdır və qəhrəman oğullarımızın sayəsində əzəli torpaqlarımız yenidən bizlərə, əsl sahiblərinə qaytarıldı. Artıq Qarabağımızı heç bir qüvvə bizdən qopara bilməz. Çünki o torpaqlara neçə-neçə igid, qəhrəman övladımızın qanı tökülüb. O torpaqlar bizim üçün müqəddəsdir və hər zaman belə olacaq”.Azərbaycan Ordusunun leytenantı olan Ceyhun Dünyamalıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ döyüşlərində, Cəbrayıl, Füzuli, Zəngilan, Hadrut, Qubadlı, həmçinin Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ceyhun Dünyamalıyev noyabrın 8-də Şuşa döyüşləri zamanı şəhid olub. Doğulub, boya-başa çatdığı Culfa şəhərində dəfn olunub.

### ”ŞƏHİDLƏRİMİZİN RUHU İNDİ ŞADDIR, ÇÜNKİ TORPAQLARIMIZ AZADDIR”

Qeyd edək ki, müharibədə göstərdiyi igidliyə görə, vətən oğlu Ceyhun dövlətimiz tərəfindən bir neçə orden və medallara layiq görülüb. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən, Ceyhun Dünyamalıyev ölümündən sonra ”Vətən uğrunda” medalı ilə təltif edilib.Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən, ölümündən sonra ”Şuşanın azad olunmasına görə” medalı ilə təltif edilib.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən, Ceyhun Dünyamalıyev ölümündən sonra ”Kəlbəcərin azad olunmasına görə” medalı ilə təltif edilib. Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən, Ceyhun Dünyamalıyev ölümündən sonra ”Cəbrayılın azad olunmasına görə” medalı ilə təltif edilib. Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən, Ceyhun Dünyamalıyev ölümündən sonra ”Xocavəndin azad olunmasına görə” medalı ilə təltif edilib.Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Ceyhun Dünyamalıyev ölümündən sonra ”İgidliyə görə” medalı ilə təltif edilib. Gülnarə xanım söhbətinin sonunda dedi ki, Ceyhun Dünyamalıyev və onun kimi qeyrətli oğullarımızın şəhadəti təbii ki, bizlər üçün olduqca kədərlidir. Ana üçün çox böyük dərddir: ”Lakin bizlər, həm də qürurluyuq, ona görə ki, torpaqlarımız 30 ilə yaxın bir müddətdir qaldığı əsarətdən xilas olunub. Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər və vətənpərvər ordumuz bizlərin torpaq həsrətinə son qoyaraq, bizlərə dünya boyda sevinc və iftixar hisslərini yaşatdılar”. Ceyhun Culfada dəfn olunub, - deyir Ana. Hər gün insanlar onun və digər şəhidlərimizin məzarını ziyarət etmək üçün oraya axın edirlər: ”İnanıram ki, şəhidlərimizin ruhu indi şaddır. Çünki torpaqlarımız azaddır”.

***Nəzakət ƏlƏddinqızı***

# "Makron Ermənistanı dəstəkləmək istəyirdi. O nə əldə etdi? Heç nə"



***ABŞ və Qərb koalisiyası Əfqanıstanı tərk etdikdən sonra bir çox ekspert Qərbin postsovet məkanında fəallığının zəifləyəcəyini proqnozlaşdırdı. Amma bu, hər-halda Cənubi Qafqazda baş vermədi. Qərb Ermənistandakı fransalı və amerikalı diplomatların köməyi ilə öz fəallığını göstərir.***

"İki sahil" xəbər verir ki, rusiyalı tanınmış yazıçısı, siyasi və ictimai xadim, İzborsk klubunun qurucularından biri və sədri Aleksandr Proxanov Oxu.Az-a müsahibəsində bildirib ki, Qərb postsovet məkanına Sovet İttifaqının tənəzzülündən və Rusiyanın bu ölkələri tərk etməsindən dərhal sonra gəlib.

"Moskva geri dönməyə çalışır, amma başa düşmək lazımdır ki, boşluq dərhal Qərb tərəfindən dolduruldu. Sonra başqa bir rəqib gəldi - Çin. İndi burada Türkiyə də var. Müasir postsovet, Asiya məkanı çox çətin rəqabət yeridir. Orada Çin, Avropa (əsasən anqlosakslar) və Türkiyə mübarizə aparır", - deyə Aleksandr Proxanov qeyd edib.

- Cənubi Qafqazda Rusiya və Türkiyə kifayət qədər yaxından əməkdaşlıq edir. Söhbət Qarabağdan gedir. Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi yaradılıb.

- Rusiya ilə Türkiyə arasında əməkdaşlıq mürəkkəb və eyni zamanda praqmatikdir. Rəqabət var. Xatırlayaq ki, Türkiyə Krımı Rusiya ərazisi kimi tanımır. Amma eyni zamanda bir sıra digər məsələlərdə də əməkdaşlıq edirik. Moskvanın xoşuna gəlir ki, Ankara Rusiyadan silah sistemləri alaraq Qərblə toqquşmalara getməyə hazırdır. Turistlərimiz Türkiyəyə gedir. Rusiya bir vaxtlar Türkiyə tərəfinə çevriliş ehtimalı barədə xəbərdarlıq etmişdi. Ancaq bir Rusiya təyyarəsi də vuruldu. Yəni, bu, ziddiyyətli münasibətlərin ən çətin qarışığıdır.

Qarabağa gəlincə, orada vəziyyət sabitdir. Və bu sabitlik Türkiyənin iştirakı olmadan əldə edilməyib, çünki Ankara Azərbaycan siyasətində mühüm rol oynayır. Mövcud sabitlik yalnız Rusiya, Türkiyə və Azərbaycanın əldə etdiyi kompromisin olduğu halda mümkündür.

- Bəs Qərbin Qarabağ probleminin həll olunduğunu qəbul etmək istəməməsini nə ilə izah etmək olar?

- Onların əlləri boş qaldı. İndi Qərbdə nə istəsələr deyə bilərlər. Xatırlayaq ki, həmin Fransa prezidenti Emmanuel Makron keçən ilki müharibə zamanı Ermənistana dəstək olmaq istəyirdi. O nə əldə etdi? Heç nə. Buradakı digər xarici oyunçular Rusiya və Türkiyədir.

Hətta o erməni qüvvələri ki, Qərbə rəğbət və Rusiyaya düşmən münasibət bəsləyir, Azərbaycana münasibətlərini nəzərə almasaq belə, Qərbə, ABŞ və ya Fransadakı olan "böyük erməni diasporu"na olan ümidlərinin boşa çıxdığını başa düşdülər.




# Atılan addımlar öz bəhrəsini verir - Böyük Qayıdış

***Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi ilə xalqımızın misilsiz birliyi və ordumuzun rəşadəti, yüksək döyüş ruhu 44 günlük ədalətli Vətən müharibəsində Azərbaycana möhtəşəm Zəfər qazandırdı. Rəşadətli ordumuz təcavüzkar Ermənistanın silahlı qüvvələrini darmadağın edərək Qarabağı yağı düşməndən təmizlədi və işğalçı ölkəni kapitulyasiya aktına imza atmağa məcbur etdi. Tarixi ədalət bərpa olundu.***

Bu gün işğaldan azad olunmuş bütün ərazilərimiz böyük Zəfərin sevinc və təntənəsini yaşayır. Qarabağda və Şərqi Zəngəzurda başlanan quruculuq işləri gündən-günə sürətlənir, genişmiqyaslı layihələr uğurla icra olunur. İnfrastruktur xarakterli tədbirlər- su, elektrik, istilik və s. təchizat sahələrində ciddi addımlar atılır. İşğaldan azad edilmiş ərazilərdə dövləti başçısının dediyi kimi, enerji sahəsindən başqa ikinci vacib sahə yol infrastrukturudur. İlk növbədə bütün kommunikasiyaların, nəqliyyat magistrallarının açılması məsələsini həll etmək, yeni yollar inşa etmək istiqamətində genişmiqyaslı layihələr uğurla icra olunur. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə Qarabağımızın tacı olan Şuşa şəhərinə qədər uzanan. Zəfər yolunda artıq son tamamlama işləri aparılır. Bununla yanaşı, Bərdə-Ağdam avtomobil yolu tikilir. Paralel olaraq Füzuli-Şuşa magistral yolu, Horadiz-Ağbənd, Zəngilan-Qubadlı-Laçın, Füzuli-Hadrut, Füzuli-Cəbrayıl yolları çəkilir. Kəlbəcərə rahat çatmaq üçün Göygöldən Ömər aşırımı üzrə yol çəkilir. Bundan başqa, dövlət başçısının dediyi kimi, Kəlbəcər, Laçın rayonlarında hərbi əhəmiyyətli yollar çəkilir. Bu yolların ümumi uzunluğu 700 kilometrə qədərdir. Təbii ki, strateji və sərhəddə öz mövqelərimizi möhkəmləndirmək nöqteyinəzərindən bu yolların çox böyük əhəmiyyəti var.

Qarabağ tarixən geniş və münbit torpaq sahələrini əhatə edib. Bu baxımdan bölgənin digər iqtisadi fəaliyyət sahələri ilə yanaşı, çoxşaxəli aqrar potensialı var. Bu iqtisadi rayonda üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, arıçılıq meyvə-tərəvəz, bostançılıq və heyvandarlığın inkişafı üçün yetərincə imkanlar mövcuddur. Ənənəvi sahələrlə yanaşı, bölgədə kartof, tərəvəz, bostan və yem bitkiləri əkinlərinin genişləndirilməsi imkanları da böyükdür. Prezidentimiz daim vurğulayır ki, azad edilmiş torpaqlarda kənd təsərrüfatının inkişafı sistemli xarakter almalıdır: "Hökumət, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi bəri başdan prioritetlər seçməlidir. İlk növbədə, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün hansı məhsullar əkilməlidir? Azad edilmiş torpaqların həm bitkiçilik, həm də heyvandarlıq sahəsində çox böyük potensialı var".

İşğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə səlahiyyətli dövlət orqanlarının rəhbər şəxslərindən ibarət formalaşdırılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin İqtisadi məsələlər üzrə İşçi qrupunun məlumatına görə, 44 günlük Vətən müharibəsindən sonra Füzuli rayonunun azad olunmuş 600 hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsində taxıl becərilib və məhsul tədarük edilib. Həmçinin cari ildə rayonun 288.8 hektar ərazisində şəkər çuğunduru əkilib və həmin torpaqların 78,8 hektarı işğaldan azad edilmiş əraziləri əhatə edir. Füzuli rayonunun işğaldan azad edilmiş Seyidmahmudlu kəndi ərazisindəki minalardan təmizlənmiş həmin torpaqlarda şəkər çuğunduru ilk dəfədir becərilir və yüksək məhsuldarlığa nail olunub. Belə ki, şəkərlilik faizi 15-16 faiz göstərici ilə hər hektardan 55-60 ton məhsul yığılıb və bugünə kimi 1800 tona yaxın məhsul tədarük edilib. Rayon üzrə bu göstərici 3600 tondur. Sahələrdə şəkər çuğunduru yığımı davam edir.

Göründüyü kimi, işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri gündən-günə sürətlənir və geniş vüsət alır. Görülən bütün işlər xalqımız tərəfindən böyük minnətdarlıq hissi ilə qarşılanır və dəstəklənir.

**Zahid Rza**



## Hava çirkliliyinin səbəb olduğu daha bir qlobal problem - ŞOK STATİSTİKA

***Son araşdırmalara görə, hava çirkliliyi dünyada hər il təxminən 6 milyon körpənin vaxtından əvvəl, 3 milyon körpənin isə həddən çox kilolu doğulmasına səbəb olur. SİA xəbər verir ki, havanın çirklənməsinin insan sağlamlığına zərərləri araşdırmalar sayəsində ortaya çıxır. Nəhayət, mütəxəssislər çirklənməyə məruz qalmanın erkən doğumlara səbəb olan ən böyük faktorlardan biri olduğunu bildirirlər.***

Hər il 15 milyon yeni doğulan körpənin ölümünün əsas səbəbləri;

Bundan əlavə, hər il dünyada 15 milyon yeni doğulan körpənin ölümün əsas səbəbi kimi hava çirkliliyi göstərilir. Çoxsaylı elmi araşdırmaların nəticələrini birləşdirən tədqiqatçılar 204 ölkədə daxili və çöl çirkliliyinə aid 108 sənədi təhlil ediblər. Ən son nəticələrə görə, əsasən kömür və ya odun kimi bərk yanacaqla işləyən sobaların yaratdığı daxili hava çirkliliyi 2019-cu ildə hamiləliklərin ümumi çirklənmə yükünün təxminən üçdə ikisini təşkil edib. Tədqiqatçıların dediklərinə görə, bu hal xüsusilə Cənub-Şərqi Asiya və Saharaaltı Afrikanın bir hissəsi kimi inkişaf etməkdə olan yerlərdədir.

"Qapalı məkanda hava çirkliliyi açıq havadan daha çox zərər verə bilər"

Kaliforniya Universitetinin epidemioloqu, San-Fransisko və Plos Medicine jurnalında dərc olunan məqalənin baş tədqiqatçısı Rakeş Qoş "Fərdi şəkildə qapalı məkanda hava çirkliliyinə məruz qalmaq açıq havaya nisbətdə daha təhlükəlidir" - deyib. Hava çirkliliyi ümumiyyətlə 2,5 mikrondan az olan hissəciklərə məruz qalmaqla ölçülür. Nəfəs aldıqda bu hissəciklərin kiçik ölçüsü qana nüfuz edir və potensial olaraq geniş sağlamlıq problemlərinə səbəb olur.

Dünya əhalisinin 92 faizindən çoxu hava çirkliliyinə məruz qalır

Dünya əhalisinin 92 faizindən çoxu havanın keyfiyyəti Ümumdünya Səhiyyə Təşkilatının təyin etdiyi limitlərin altında olduğu bölgələrdə yaşayır. Təxminən 49 faizi də eyni dərəcədə yüksək daxili hava çirkliliyinə məruz qalır.

Cənub və Şərqi Asiya kimi bölgələr ən çirkli, Banqladeş, Çin, Hindistan və Pakistan dünyanın ən çirkli 50 şəhərindən 49-na ev sahibliyi edir. Son illərdə dünyanı əhatə edən meşə yanğınları, əkinçilik yanğınları və toz fırtınaları da sıx hava çirkliliyinə səbəb olur.

**Aysel Məmmədova**

# Şəhidlər qürur yerimiz, and yerimizdir!



Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan 44 günlük Vətən müharibəsində canından keçmiş Qəbələ oğullarının - Topbağ kənd sakini Hakim Baxışovun, Böyük Pirəli kənd sakini İsmayıl Qurbanovun və Nic qəsəbə sakini Elşən Dəmirlinin şəhadətə yüksəlmələrinin ildönümüdür. Bu münasibətlə rayon icra hakimiyyətinin, YAP Qəbələ rayon təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri və şəhidlərin təhsil aldıqları məktəblərin kollektivi hər üç şəhidin məzarını ziyarət edib, üzərinə gül dəstələri düzülərək xatirələri anılıb, ruhlarına dualar oxunub. Ziyarət zamanı vurğulanıb ki, Azərbaycan xalqı Vətən torpaqları uğrunda mətanətlə döyüşən, bu yolda Şəhadət zirvəsinə ucalan və tarixi, möhtəşəm Qarabağ Zəfərinə imza atan Hakim Baxışov, İsmayıl Qurbanov və Elşən Dəmirli kimi cəsur, fədakar övladlarının əziz xatirəsini daim uca tutacaqdır.

Sonra tədbir iştirakçıları hər üç şəhidin ailəsini ziyarət edib Qəhrəman Şəhidlərimizin valideynləri və ailə üzvləri dövlətin bütün strukturları və cəmiyyət üzvləri tərəfindən onlara göstərilən yüksək diqqət və qayğıya görə təşəkkür edərək, Vətənin adını ucaldan və xalqımıza misilsiz qələbə sevincini bəxş edən övladları ilə fəxr etdiklərini bildiriblər. Həmçinin, şəhid ailələrinin üzvlərinin gündəlik qayğıları ilə maraqlanıblar və Azərbaycanımıza yüksək fəxarət, şərəf gətirən bu ailələri daim xüsusi diqqət mərkəzində saxladıqlarını bildiriblər.Şəhidlərin ailə üzvləri dövlət tərəfindən göstərilən diqqət və qayğıya görə Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Bütün Şəhidlərimizə Allahdan rəhmət diləyirik. Ruhunuz şad olsun, Vətənimizin qəhrəman oğulları!

**RƏFİQƏ HÜSEYNOVA**

# "Şəhid ailələrinə qayğı" aksiyası davam edir





YAP Şabran rayon təşkilatında "Şəhid ailələrinə qayğı" aksiyası davam edir. SİA-nın məlumatına görə, Rayon təşkilatının nümayəndələri Vətən müharibəsi qəhrəmanları-Abbasov Ağababa Səfər oğlu və Şükürov İlyas Qənbər oğlunun şəhid olmalarının ildönümü ilə əlaqədar onların ailələrini ziyarət edib, qayğıları ilə maraqlanıblar. Sonra Şabran rayon Güləmli kəndində şəhid Şükürov İlyasın əziz xatirəsinə həsr olunmuş bulaq abidə kompleksinin açılışı olub.

Mərasimdə Şabran Rayon İcra Hakimiyyəti başçısı Asif Hüseynov, YAP Şabran rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Mehdi Balabəyov və digər əməkdaşlar, o cümlədən rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Çıxış edənlər şəhidin şərəfli ömür və döyüş yolundan danışıblar.




**RƏFİQƏ**

# YAP Biləsuvar rayon təşkilatının əməkdaşları şəhid ailələrini ziyarət edib





Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Aqşin Bağırov və təşkilatın əməkdaşları 44 günlük Vətən müharibəsində vətənimizin müdafiəsi uğrunda öz canından keçən Biləsuvar rayon Bəydili kəndindən olan şəhid Gözəlzadə Ceyhun Nazim oğlu və şəhid Bağırlı Hikmət Qəhrəman oğlunun ildönümləri ilə əlaqədar olaraq ailələrini ziyarət ediblər.

Daha sonra şəhidlərin məzarları ziyarət edilib və dərin ehtiramla yad edilərək üzərlərinə tər gül dəstələri qoyulub.

# Şəhid hərbi qulluqçuların məzarları ziyarət edilib









Şəhid hərbi qulluqçuların Yasamal rayonunda yerləşən 2-ci Fəxri Xiyabandakı məzarları ziyarət edilib, ruhlarına dualar oxunub. SİA-nın məlumatına görə, anım mərasimdə iştirak edən Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov qeyd edib ki, Həmidağa Hüseynzadə müharibədə göstərdiyi rəşadətə görə, "Qarabağ" ordeni, "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları, Rəşad Mikayılzadə isə "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif ediliblər. E.Həsənov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin məqsədyönlü siyasəti sayəsində şəhid ailələrinin dövlət qayğısı ilə əhatə olunduqlarını vurğulayıb.

Mərasimdə çıxış edən şəhidin yaxınları öz xatirələrini bölüşüblər, diqqət və dəstəyə görə ölkə rəhbərliyinə təşəkkürünü bildiriblər.

Anım mərasimində YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Yasamal rayon İdarəsinin rəisi Ramin Şükürov, Yasamal Rayon İcra Hakimiyyəti aparatının əməkdaşları və Yasamal Bələdiyyəsinin rəhbərliyi, şəhidlərin döyüş yoldaşları və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

# USAİD Azərbaycanı saymır və ərazi bütövlüyünü şübhə altına alır!

**Ölkəmizdən qovulan Soros fondunun qolu sayılan bu qurumun kirli əməlləri faktlarla sübuta yetirilib və bu gün də yetirilməkdədir**

Hazırkı dövrə qədər USAİD-in anti-Azərbaycan xarakterli rəhbəri və bu qurumun əslində erməni lobbiçilərinin pərdəarxası fəaliyyətləri haqqında dəfələrlə, eləcə də 100%-lik sübutlarla yazdığımıza baxmayaraq, Samanta Pouerin ölkəmizdəki nümayəndəliyi hələ də öz fəaliyyətlərini davam edir. Üstəlik, bu azmış kimi, açıq şəkildə Azərbaycan dövlətinə. Xalqına qarşı hörmətsizlik və saygısızlıq nümayiş etdirir. Bu qurumun əsas kökünün hazırda Ağ ev administrasiyasının və Bayden rəhbərliyi, yəni qondarma erməni soyqırımının qəbul edildiyi bir zümrə ilə bağlı olduğu barədə də kifayət qədər yazılıb və məlumatlar verilib.

Lakin hər bir mühüm məsələyə əhəmiyyətsiz yanaşmanın sonradan fəsadlar verə biləcəyi ehtimallarının da yüksək olacağını düşünərsək, bir daha USAİD adlı ermənipərəst qurumun daha bir kirli, antitürkçülüyə, antiazərbaycançılığa doğru hesablanmış əməlinin ifşa edilməsinin tam zamanı olduğu qənaətinə gələ bilərik.

## Elə isə keçək mətləbin məğzinə:

Belə ki, ABŞ konqresi USAİD adlı təşkilata məktub göndərib və həmin məktubda "Artsaxda" (?!) yaşayan ermənilərin ehtiyaclarının qiymətləndirilməsinə dair görülən səylər haqqında" (??!!) məlumatın verilməsi tələb edilib.

Və hələ bu harasıdır? Konqresin sözügedən məktubuna cavab olaraq USAİD geniş məzmunlu cavab hazırlayıb və ən maraqlısı (!) Azərbaycanın ölkə rəhbərliyinin "Daqğlıq Qarabağ" adlı ərazinin olmaması barədə verdiyi bəyanatlara rəğmən, "Dağlıq Qarabağ" adından istifadə edib, üstəlik "Dağlıq Qarabağı" faktiki olaraq "müstəqil dövlət" kimi tanıyaraq "Dağlıq Qarabağ" və Ermənistanın ümumi sərhədləri olduğuna işarə edib (!!!).

Məktuba deyilir: "USAİD davamlı olaraq Dağlıq Qarabağdan 90, 000 köçürülmüş (ingilis dilində "displaced" termini istifadə edilib-R.R.) şəxsin Ermənistana gəlməsi nəticəsində yaranmış kompleks humanitar böhrana səmərəli cavab tədbirləri görməkdən ötrü öz proqramlarının adaptasiyasını davam etdirir..."

**Məktubun tam mətnini aşağıda oxuya bilərsiniz:**






USAID RESPONSE TO REP. JUDY CHU (D-CA)

Questions from the Office of Rep. Judy Chu

1. Updates on Admin (through USAID or other means) efforts to assess the scope and nature of humanitarian needs among Armenians in Artsakh

2. What's being done to get aid to this population

3. What kind of Congressional action could help USAID meet these needs?

From the outset of last year's fighting between Armenia and Azerbaijan in and around NK, the United States has responded to meet urgent humanitarian assistance needs for vulnerable populations fleeing the violence and the communities that host them. Throughout the crisis, USAID has continued to adapt its programming to effectively respond to the complex humanitarian crisis resulting from this fighting and assist the over 90,000 displaced persons that arrived in Armenia from NK.

The intensive fighting in the fall of 2020 sparked mass displacement of affected communities into Armenia, triggering an acute humanitarian crisis. Following the Ambassador's October 9 disaster declaration, our Mission in Armenia provided an initial $100,000 in humanitarian assistance through partner Catholic Relief Services (CRS) and its local partner, Caritas Armenia, to distribute relief kits containing winter blankets, hygiene materials, and other items to affected populations in Armenia. On November 17th, Secretary Pompeo announced that the Department of State and USAID would provide $5 million in humanitarian assistance to support the operations of the International Committee of the Red Cross (ICRC) and other international and nongovernmental organization partners to assist people affected by the fighting. USAID's Bureau for Humanitarian Assistance provided an additional $2.4 million to meet the immediate and acute humanitarian needs of those displaced by the violence in NK in Armenia. This amount, along with the initial $100,000, comprised USAID's $2.5 million portion of the $5 million in new assistance. In total, USAID has provided over $4.5 million in new and repurposed assistance to respond to the complex humanitarian crisis resulting from the NK hostilities and the conflict-associated COVID-19 resurgence in Armenia.

USAID efforts complement other parts of the comprehensive U.S. emergency response to mitigate conflict-related impacts in and around NK. The U.S. Department of State's component of this effort, led by the Bureau for Population, Refugees, and Migration (PRM), through ICRC, supported $2.5 million in emergency assistance to meet the acute and ongoing humanitarian needs of populations impacted by the fighting in and around NK. USAID has not had any active programming in NK since March 31, 2020. From 1998 to 2020, USAID provided more than $48 million in assistance for NK. USAID is coordinating closely with the Department of State and interagency partners regarding the provision of humanitarian assistance to populations affected by the fighting in and around NK. The Department and USAID are also assessing needs as we consider additional opportunities for assistance to NK. In some cases this may include clarifying outstanding questions that bear on our ability to fund new programs there, including whether implementing partners would have reliable access to NK as well as the implications of the Russian presence in NK.

In Armenia, an estimated 37,000 ethnic Armenians displaced from NK face ongoing shelter, protection, health (including mental health), and food security needs. Of the more than 90,000 people displaced to Armenia by the fighting last fall, an estimated 30,000 are expected to remain in Armenia permanently. These remaining populations will need long-term integration assistance.

Significant challenges that inhibit humanitarian assistance efforts in and around NK remain. Many humanitarian organizations, including UN agencies, have been blocked from accessing vulnerable populations in the area, further complicating efforts to provide needed assistance. As the displacement situation continues to evolve, USAID is working closely with the Department of State to assess post-conflict humanitarian needs and possible future U.S. engagement. We anticipate that the focus of USAID assistance will transition from emergency humanitarian assistance to longer-term recovery and integration of displaced persons in Armenia.

Going forward, in addition to coordination with our interagency and donor partners, USAID will continue to track conflict-related displacement and humanitarian needs and opportunities to support the safe, voluntary, and dignified return of displaced populations to their home communities as conditions allow. The United States remains committed to helping foster a more stable and peaceful future for all the people of the region, including in NK.

Göründüyü kimi, bu, artıq tam bir rəzalət və rüsvayçılıqdır. Yəni USAİD Qarabağdan Ermənistana qaçanları "ölkə daxilində köçürülmüş" şəxslər kimi tanıyır və bu da birbaşa (!) beynəlxalq hüquq normalarına, eləcə də beynəlxalq hüquq tərəfindən tanınan Azərbaycanın suveren ərazilərinə qarşı tam bir müdaxilədir. Belə çıxır ki, bu həmin şəxslər beynəlxalq sərhədləri pozaraq digər ölkə ərazisinə keçdiklərinə görə, onlara "qaçqın" deyilməli və buna müvafiq də status verilməlidir...

Bu rəzalətdən isə yalnız bu nəticəni hasil etmək olar: yuxarıda da vurğulandığı kimi, təkcə bu kimi sərsəm və qəbuledilməz bəyanatları ilə USAİD açıq şəkildə Azərbaycanın ərazi bütövlüyünü təhdid edir!

**USAİD 1998-2020-ci illər ərzində separatçı-quldur rejimə 48 milyon ABŞ dolları məbləğində yardım göstərib!**

Və bu da son deyil. Sözügedən məktubda həmçinin qeyd olunub ki, 1998-2020-ci illər ərzində USAİD separatçı-quldur rejimə 48 milyon ABŞ dolları məbləğində yardım göstərib. Separatçı quldur rejimi məhz həmin maliyyə vəsaitləri hesabına işğal olunmuş ərazilərdə mürəkkəb müdafiə istehkamları qurub, silahlanıb.Vətən müharibəsində isə Azərbaycan Ordusu məhz həmin istehkamları fəth etməkdən ötrü nə qədər qəhrəmanlıqlar göstərdi, şəhidlər verdi. Bunun cavabını verməl zamanı isə artıq yetişib - USAİD-in ermənipərəst rəhbərliyinin tapşırıqları altında fəaliyyət göstərən emissarlar da ölkəmizdən öz sənəd-sünədləri ilə rədd edilməlidirlər.

**Təbii ki, bunun da səbəbi var:**

USAİD bəyan edir ki, o "Dağlıq Qarabağdan" köçürülmüş şəxslərə əlavə olaraq 2,5 milyon dollar yardım göstərəcəkdir. Yəni USAİD Azərbaycanda fəaliyyət göstərdiyi dövrlər ərzində bir milyon qaşqın və məcburi köçkünlərimiz haqqında dürüst qərar qəbul etməyib, sadəcə, kənd təsərrüfatı və s. kimi sahələrdə guya "əməli fəaliyyət" göstərməklə, gerçək ermənipərəst siyasi maraqlarını pərdələyib, özü də minnət qoymaqla. Bəs deyilmi?!

Bu baxımdan da xatırladaq ki, USAİD hazırkı rəhbəri Samanta Pouer 2006-cı ildə çəkilən qondarma "erməni soyqırımı" haqqında filmdə türkləri "faşist" adlandıran. "genosidin" tanınma gününü özünün ikindi ad günü elan edən bir radikal ermənipərəts ünsürdür. Məhz Samanta Pouer sosial şəbəkələrdə etiraf etmişdi ki, övladları kilsəyə gedərkən, onlara "genosid qurbanlarına" şam yandırmağı tapşırıb.

Haqlı olaraq sual yaranır: əziz xalqımız, bütün bunlardan sonra bu təşkilat axı bizim ölkədə nə gəzir? Bunun isə cavabının bir tərəfi vaxtilə USAİD-in bağlı olduğu Soros fondudur. Həmin Soros fondu ki, o da ermənipərəst davranışlarına, ölkəmizdə hərc-mərcliklər yaratmasına görə Azərbaycandan rədd edilmişdi. İndi isə növbə USAİD-indir!

***Rövşən RƏSULOV***

ANALİTİK-FAKT



**Təhmasib Novruzov**

# Səngiməyən İran məsələsi

***İran fars rejimi buynuzunu türkün çomağına sürtməkdə davam edir. Azərbaycanın həm siyasiləri, həm ictimai fəalları da mövzu ilə bağlı davamlı fikirlərini səsləndirməkdədirlər. Nələr baş verir? Bu söz davası sonda necə nəticələnə bilər? Tarix açmaq istəmirəm. Ancaq həm farslara, həm indi İran adlanan ölkədə yaşayan, farslar tərəfindən manqurtlaşdırılmış sapı özümüzdən olan baltalara, həm də içimizdəki xurafat qurbanlarına qısa bir xatırlatmaya ehtiyac görürəm.***

İndi İran adlanan bu ölkənin tarixini bilməyənlərə və ya bilib bilməməzliyə vuranlara bu xatırlatmalar hava, su qədər vacibdir. Çox qədimlərə getmirəm. Eramızın 10-cu əsrindən 1920-ci illərə qədər, yəni min illik bir dövr ərzində bu ölkəni idarə edən bir fars hökmdar adı kimsə çəkə bilərmi? Böyük Səlcuqlardan başlamış Ağqoyunlu, Qaraqoyunlu, Səfəvi, Əfşar, Qacar dövlətlərinin hamısı türk dövlətləri deyilmi? Ötən əsrin əvvəllərindən başlayaraq bəzi dünya güclərinin anti-türk siyasətinin tərkib hissələrindən biri də İrandakı türk hakimiyyətinə son qoyub fars hakimiyyəti yaratmaq oldu və nə yazıqlar ki, buna nail oldular. Səttar xanı, Bağır xanı, Şeyx Məhəmməd Xiyabanini fiziki məhv edərək, bu ölkədə demokratik, sivil bir dövlətin yaradılmasına mane olan bu güclər bununla sübut etdilər ki, onlara demokratiyadan daha çox türk dünyasını parçalamaq siyasəti öndədir. Hətta hakimiyyətə gətirmək üçün onlara vassallıq edəcək bir zatlı, köklü adam tapmadıqlarından Hollandiya və İngiltərə səfirlərinin atlarına qulluq edən, əsil şəcərə soyadı Palani olan mehtər Rza adlı birini Rza Şah Pəhləvi adı ilə taxta çıxardılar. 1940-cı illərdə Seyid Pişəvərinin rəhbərliyi altında yenidən haqqını tələb edən İranda yaşayan türklərə tutulan divan da unudulmayıb. Nəhayət 1970-ci illərdə şah rejiminə qarşı ayağa qalxan İran türkləri öz işərilərindən seçdikləri Bəxtiyar adlı Azərbaycan türkünün hakimiyyətdə qalmasına, yenə avropanın "demokratiya" (?) aşiqlərinin köməyi ilə Ayətullah Xomeyni imkan vermədi və yenə bu ölkəni farslaşdırdılar. Damarlarında türk qanı axan hər kəs yaxşı anlayır ki, qərbin bu siyasətinin bir məqsədi var, o da Böyük Turan ərazisinin birləşməsinə mane olmaq! Ermənistan adlanan qondarma dövləti də məhz bu məqsədlə yaratdılar qədim Azərbaycan torpaqlarında. Belə olduğu surətdə farslarla ermənilərin türklərə münasibətindəki eyniliyin mahiyyəti aydın olmurmu? Bu gün İran əhalisinin təxminən yarısı türklərdən ibarətdir. Halbuki İranın hakim xalqı olan farsların nüfuzu bütün əhalinin 30-35 faizini təşkil edir. Bu gün İran adlanan məmləkətin bir milyon kvadrat kilometrdən çox olan ərazisinin 20-25 faizi tarixən farsların yaşadığı ərazi olduğu halda, bu ərazilərin 60-65 faizi tarixən türklərin yaşadığı yurd yerləridir. Bütün bunlar həm tarixi ədalət, həm də müasir beynəlxalq hüquq baxımından bu ölkənin əsas xalqı kimi türklərin tanınmalı olduğu iddiasına tam əsas verir. Lakin Azərbaycan müstəqilliyini əldə etdikdən ötən otuz il ərzində İran adlanan ölkəyə hər zaman xoş məram nümayiş etdirməsinə rəğmən, qarşı tərəfdən adekvat reaksiya görmür. Əksinə, Azərbaycan torpaqlarını işğal edən, məscidləri, müsəlman qəbirstanlıqlarını dağıdan, müsəlmanları özünə düşmən elan edən (ermənilər heç vaxt erməni-türk davası adlandırmırlar bu davanı, hər zaman erməni-müsəlman savaşı kimi təqdim edirlər dünyaya), müsəlman məscidlərində donuz saxlayan ermənilərə həm maddi, həm mənəvi, həm də hərbi dəstək verməyə davam etdilər. 44 günlük Vətən Müharibəsində əldə olunan tarixi zəfərdən sonrakı dövrdə bu ölkənin hakimiyyət dairələrinin sərgilədikləri mövqe isə, necə deyərlər, nə yerə sığandı, nə də göyə. Bütün bunlar artıq səbr kasası dolan quzey Azərbaycan türklərini adekvat cavablar verməyə vadar etdi. Və məni narahat edən isə odur ki, bizim bəzi siyasilərimiz, ictimai fəallarımız, fikir adamlarımız ya populizmə yuvarlanaraq, ya da hansısa qüvvələrdən aldıqları sifarişləri yerinə yetirmək üçün bəzi deyilməməli fikirləri efirlərdə, sosial şəbəkələrdə səsləndirirlər. Belə çıxışlarla həmin adamlar düşməni gələcək strategiya ilə bağlı ya oyaq salırlar, ya da düşmənin əlinə bizə qarşı daha aqressiv çıxışlar etmələri üçün əsas verirlər. Nəticədə, haqlı olduğumuz halda haqsız duruma düşürük. Şəxsən mənim qətiyyən şübhəm yoxdur ki, yenə qərbin müəyyən dairələri fars rejimini qışqırdır. Yenə hansısa məkrli bir plan hazırlanır. O tayda yaşayan 35 milyonluq türk əhalini də zor durumda buraxmış olmağımızı da nəzərə alsaq, hesab edirəm ki, İranla bağlı danışanlar çıxışlarında müəyyən korrektələr etməlidirlər. Qaş düzəltmək istədiyimiz halda gözü tökməmək üçün daha ciddi və daha ağıllı siyasəti anlamalı və ona uyğun çıxışlar etməliyik. Səhvəm, düzəm, bilmirəm, amma mən belə anlayıram!

# Bu ünsürlər heç vaxt dövlətçiliyimizin yanında olmayıblar!



### "Milli Şura"nın ölkənin həssas vaxtlarında yalnız özəl siyasi məqsədlərini güdmələri mənəviyyatsızlıq və xəyanətdir!

Bugünlərdə əsasən AXCP sədri Əli Kərimlinin dirijorluğu ilə xaricdəki anti-Azərbaycan məqsədli qüvvələr tərəfindən idarə edilən "Milli Şura" yetkililəri Qərb ölkələri dairələrindəki ermənipərəst ağalarından aldıqıqları növbəti tapşırıqlara əsasən yenidən ortalığa düşməklə ölkədaxili qarmaqarışıqlıq yaratmaq cəhdlər göstərməkdədirlər. Bu həmin AXCP və "Milli Şura"dır ki, istər Vətən müharibəsi, istərsə də dövlətçilik dirəklərimizin daha da möhkəmləndirilməsi üçün imzalanan Şuşa Bəyannaməsinin qəbul olunmasında daxillərində uzun illərdir ki, formalaşmış aşkar iblisliklərini ortaya qoydular - hətta 50-yə yaxın siyasi partiyaların dəstək bəyanatlarına imza atmadılar.

Bu gün isə regionda geosiyasi vəziyyətin xeyrimizə dəyişdiyi bir zamanda, eyni zamanda, proseslərdən təlaşlanaraq bizi istəməyən qüvvələrin baş qaldırmağa cəhd göstərdikləri vaxta adıçəkilən ünsürlərin hakimiyyəti ittiham edən bəyanat yaymaları ölçüyəgəlməz dərəcədə xəyanətkarlıq və ləyaqətsizlik pikidir.








### Cəmil Həsənlinin qızı "mənəvi terrora" məruz qalırmış, Gültəkin Hacıbəylinin keçmiş əri ilə "problemi" varmış, Əli Kərimlinin mühafizəçisi "əzabkeş siyasi məhbusuymuş" (?!)

Sən demə, məlum qanunsuz əməlinə görə istntaqa cəlb olunan və məhkəməsi gedən AXCP sədri Əli Kərimlinin mühafizəçisinin maraqlarını müdafiə etmək, onu "əzabkeş siyasi məhbus" kimi zorla ictimai rəyə sırımaq ölkənin vacib gündəmindən daha "önəmliymiş" (?!).

Belə ki, "Milli Şura"dakı sözdə başbilənlərin yaydıqları kağız parçasında cəbhəçi sədrin mühafizəçisinin yekunlaşan məhkəməsi barədə söz yığnağı toplanıb və eləcə də adıçəkilən ölü qurumun sədri Cəmil Həsənlinin qızının artıq unudulmuş bəlli videosu "mənəvi terror" kimi xatırlanıb, keçmiş əri ilə isə əmlak problemi olan Gültəkin Hacıbəylinin guya "təzyiqə məruz qaldığı" bildirilib!

Vətən əsası, bəyanatda Azərbaycan xalqının İkinci Qarabağ müharibəsində şəhid olanların 27 sentyabr - Anım Günü, İranın son zamanlardakı həyasız davranışları, Ermənistanın sülh sazişinə imza atmaması ilə bağlı bir cümlə belə yazılmayıb.

Bu zaman sual yaranır: məgər ölkəmiz üçün belə bir həssas dönəmdə Əli Kərimli və Cəmil Həsənli tərəfindən ayrı-ayrı şəxslər barədə bəyanat hazırlamaları bu qədərmi vacibiymiş?

### AXCP və onun yedəyi sayılan "Milli Şura" təmsilçiləri Vətən, dövlət, millət maraqlarını satmaqla, bu satqınçılıqlarını populizm, yaxud pafoslu ifadələr işlətmək vasitəsi ilə pərdələməyə çalışıblar

Təbii ki, həmin bəyanatın yayılmasında Azərbaycanı istəməyən xarici dairələrin iyrənc maraqları var və bunu sübut etməyə də gərək yoxdur, illərdir ki, AXCP və onun yedəyi sayılan "Milli Şura" təmsilçiləri Vətən, dövlət, millət maraqlarını satmaqla, bu satqınçılıqlarını populizm, yaxud pafoslu ifadələr işlətmək vasitəsi ilə pərdələməyə çalışıblar. İndi də belədir, amma nəyə görə bu ünsürlərin xəyanətləri barədə çoxsaylı faktlar ortada ola-ola onlar barəsində daha ciddi ölçülər götürülmür?

Çünki belə satqınların hazırkı dövrə qədər törətdikləri antimilli, antidövlətçi əməlləri ifşa olunmalı, onlar qanun qarşısında cavab verməlidirlər.

Artıq ölkəmizdə fəaliyyət göstərən müxalifətçi partiya sədrləri də AXCP və "Milli Şura" satnıqlarının kirli əməllərinə görə cavab verməli olduqları bildirilir, bir sıra tələblər irəli sürülür.



### Fərəc Quliyev: "Bunların hərəkətə gəlməsi məndə təəccüb doğurmur"

Belə ki, əgər ortada dövlət maraqları varsa, həmin maraqlara qarşı çıxmağın özü Vətənə, dövlətə xəyanət anlamını daşıyır.

Milli Dirçəliş Hərəkatı Partiyasının (MDHP) sədri Fərəc Quliyevin mətbuata verdiyi açıqlamasına görə, ölkəmiz əleyhinə olanlar daxilimizdəki əlaltılarını hərəkətə gətiriblər: "Bunların hərəkətə gəlməsi məndə təəccüb doğurmur. Onlar heç vaxt milli məsələlərlə məşğul olmayıblar. Nəinki son baş verənlərlə bağlı İran haqqında bir söz deməyiblər, Tovuz hadisələri vaxtı ordumuzla bağlı xoşagəlməyən fikirlər səsləndirirdilər, hətta ordumuzun uduzacağını deyirdilər. Orada gördülər ki, vəziyyət dəyişdi, başqa mövqe sərgilməyə başladılar".

MDHP-nın sədri düşünür ki, əslində bu xəyanətkar yığnağı yaxşı bilir ki, onlar xalqın hədəfinə tuş gəlsələr vəziyyətdən çıxa bilməyəcəklər. "İctimaiyyətin qorxusundan bunu belə etdilər", deyən Fərəv Quliyev indi də onların xarici ağalarından sifarişlər aldıqlarını istisna etmir: "İndi də kənardan basqılar olan dövrdə Azərbaycanda insan haqlarını qabartmaq kimi bir tapşırıq alıblar. Bununla beynəlxalq təzyiqlərin ölkəmizə qarşı artmasına çalışırlar. Bunu da qrantlar müqabilində edirlər. Ortada bu qədər aydın olan bir mənzərə var".

MDHP sədri: "Onlar Azərbaycana xəyanət edirlərsə, cinayət məsuliyyətinə cəlb olunmalıdırlar"

Müxalifətçi partiya sədri əminliklə bildirir ki, bu adamlar xarici dövlətlərə birmənalı şəkildə maşalıq edirlər və həmin əməllərinə görə qanun qarşısında cavab verməli, məsuliyyətə cəlb edilməlidirlər.

"Onlar Azərbaycana xəyanət edirlərsə, cinayət məsuliyyətinə cəlb olunmalıdırlar. Amma onlara meydan verildikcə, bu formada bundan istifadə edirlər. Azərbaycanda hansı insan haqları pozulub? Onlar neçə dəfə İranda həbs edilən soydaşlarımızla bağlı səslərini çıxarıblar? Orada edam edilənlərlə bağlı niyə susurlar? Dövlət və ictimaiyyət onlar haqqında sərt mövqe sərgiləməlidir", deyə Fərəc Quliyev vurğulayıb.

Beləliklə, faktlar kifayət qədərdir və əslində MDHP sədrinin də irəli sürdüyü ittihamlar ilk deyil. İstər Əli Kərimlinin, istər Cəmil Həsənlinin, istərsə də digər xəyanətkar siyasətbazların barəsində yüzlərlə bənzər faktlar, dəlillər, isbat və sübutlar mövcuddur. Elə isə artıq Azərbaycanın maraqlarına qarşı iyrənc mənəviyyatsızlıqları ilə çıxışlar edənlərin göndəriləcəkləri yeganə yol bəllidir, sadəcə onları həmin yola doğru göndərmək qalır...

**Rövşən RƏSULOV**

TƏRS BAXIŞ

# Vyaçeslav Malafeyev: “Azərbaycan bu gün multikultural və idman mərkəzi kimi fəal inkişaf edir”

***Futbol üzrə Rusiya yığmasının keçmiş qapıçısı, "Zenit"in məşhur qapıçısı və Əməkdar İdman Ustası Vyaçeslav Malafeyev "Afrikadakı ulduzlar" ekstremal televiziya şousunda iştirak edib. Vyaçeslavın futbolsevərlərinin onu yeni bir rolda görməsi gözlənilməz oldu. Vyaçeslav özü, şouda iştirakın həyatın monoton ritmini diversifikasiya etmək üçün əla bir yol olduğunu etiraf etdi. Futbolçu bu barədə "Moskva-Bakı" portalına müsahibəsində danışıb. Məşhur qapıçı, fərdi məşqçi olduğu yeni Rusiya yığmasından gözlədiklərindən və idman potensialını hansı ölkədə tətbiq edə biləcəyindən də danışdı.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.***



***- "Afrikadakı ulduzlar" olduqca ekstremal bir layihə idi. Niyə iştiraka razılıq verdiniz?***

- Niyə razılaşdım? Qismən həyatın monoton ritmini bir qədər şaxələndirmək qərarına gəldim. Bunun müvəqqəti olaraq problemlərdən və narahatlıqlardan uzaqlaşmağımda kömək edəcəyini də düşündüm. Bu layihə, bir müddət qadjetlərdən imtina etmək, belə demək mümkünsə, bu asılılığı zərərsizləşdirmək üçün də əla bir fürsətdir. Əlbəttə ki, müəyyən çətinliklərin olacağını başa düşdüm, buna görə də hər şeyi hesabladım və düşündüm ki, niyə olmasın (gülümsəyir). Yəqin ki, ən çətin şey nəhayət, ora getmək qərarını vermək idi. Təbii ki, layihədə yumşaq desək, iyrənc şeylər var idi. Bu, orada nə yeməli olduğumuza aiddir. Amma ora çatanda bu şeylərə görə təslim olmaq mənim üçün deyildi.

***- Çəkilişlər arasında nə etdiniz? Yaqudinlə bəlkə futbol oynamısınız?***

- Çəkilişlər demək olar ki, hər zaman olurdu və boş vaxt çox az idi. Uşaqlardan oxumaq və ya söhbət etmək üçün istifadə etdik. Müxtəlif stolüstü oyunlar ilə əyləndilər. Ümumiyyətlə, əyləncəli və maraqlı idi. Yalnız şounun sonunda dalğalanmalar azaldıqca kədərli və tənhalıq hiss edirdim. Və Afrikada Aleksey Yaqudinlə futbol oynamadıq (gülümsəyir).



***- Futbol haqqında. Rusiya yığmasının yeni heyətini necə qiymətləndirirsiniz, oyunçuların gələn il Dünya Çempionatında özünü göstərmək şansı varmı?***

- Rusiya yığmasının yeni tərkibi indi tamamilə başa düşülən bir vəzifə ilə üz -üzədir və bu vəzifə həll edilməlidir. Düşünürəm ki, onlar öhdəsindən gələ bilər. Sadəcə, səydən maksimum yararlanmaq lazımdır. Bunun bir hissəsi şansdan və əlbəttə ki, oyunçulardan asılıdır. Xüsusilə ən yaxşı oyunçular, optimal vəziyyətdə olmalıdırlar. Yəni, nəticə bir çox məqamlardan asılıdır. Ümumiyyətlə, Rusiya millisinin qarşıdakı dünya çempionatında şansları var. Həyəcanlı olacağıq.

***- Çoxları Rusiya yığmasının tərkibinin daha əvvəl gənc qanla yenilənməməsi ilə razılaşır, çünki ölkədə uşaq və gənclər futbolu futbolda yeni adlar doğuracaq inkişaf səviyyəsində deyil. Bununla razısınızmı?***

- Qorxuram ki, bu əbədi bir məsələ olacaq, xüsusən də, indi görünən istedadlı oğlanların çox olmadığını başa düşsəm. Yəni, əlbəttə ki, var, amma daha çoxunu görmək istərdim. Bu da futbolun inkişafındakı əsas vəzifədir. Çünki bu, avrokuboklarda və yığmada oynayacaq gələcək nəsildir. Əlbəttə ki, bu vəziyyətdə həm uşaq, həm də gənclər futbolunda təkmilləşdirilə biləcək perspektiv və məqamlar var. Ümid edirəm ki, liderlər lazımi qərarları verəcək və bir şəkildə bu vəziyyəti düzəldəcəklər.

***- 100 və ya daha çox oyunda öz komandasının qapısını toxunulmaz saxlayan Sovet və Rusiya qapıçılarından ibarət Lev Yaşin klubunun üzvüsən. Futbol karyeranız bitdikdən sonra işinizə başladınız, amma bu qapıçı məktəbi deyil ...***

- Bəli, bu, daşınmaz əmlak agentliyidir. Bu, digər istiqamətlərin gəldiyi əsas işimizdir: xizək klubu, turist bazası, hüquqi istiqamət, dizayn və təmir və digərləri. Niyə futbol məktəbi olmasın? Hələ futbolçu olarkən işimi bu istiqamətdə inkişaf etdirmək qərarına gəldim. Daşınmaz əmlaka sərmayə qoymağa başladım və bu sahədə çox yaxşı oldum. Və yalnız bundan sonra işin özünə keçdim.

***- Yenidən bu sahəyə girmək arzunuz varmı?***

- Veteranlar turnirinə dəvət aldım. 2018-ci ildə Rusiya ulduzları ilə dünya futbol ulduzları arasındakı matçda oynadım. Hədəfə girdiyimi və ya futbola qayıtmaq istədiyimi söyləmək ... bunu deyə bilmərəm. Ancaq idman həyatımda müntəzəm olaraq var- boks, qaçış, üzgüçülük və tennis. İndi bəzən oğlumla məşq edirəm. Böyük oğlum futbol oynayır, qapıçıdır, kiçiyi xokkey oynayır. Yalnız futbol və ya işlə məhdudlaşmaq istəmirəm, digər layihələrdə də həyata keçirilməsini axtarıram. Bir neçə il "Zenit" klubunda idman direktoru işlədim və hər şeyi daxildən öyrəndim. İndi başa düşürəm ki, bu cür cəhətləri inkişaf etdirmək üçün kifayət qədər keyfiyyətlərim var, amma agentlik işinə girməyəcəyəm. Bir futbol məktəbi yaradım və ya hər hansı bir idman məktəbində iştirak edim? Ola bilər, amma qısa müddətdə deyil (gülümsəyir).

***- Rusiya yığması ilə birlikdə Azərbaycanda olmusunuzmu?***

- Rusiya yığmasının Azərbaycan yığması ilə həm Bakıda, həm də Moskvada oyunları var idi. Amma nə komanda üzvü, nə də turist kimi Azərbaycana gələ bilmədim. Amma gözəl və qonaqpərvər bir paytaxt kimi Bakı haqqında çox eşitmişəm. Çox dadlı mətbəxiniz və mehriban insanlarınız var. Çoxları qeyd edir ki, bu gün Azərbaycan həm multikultural mərkəz, həm də idman mərkəzi kimi fəal inkişaf edir. Burada bir çox dünya səviyyəli yarışlar keçirilməyə başlandı. Bakıya gəlmək maraqlı olardı.

***- Əgər sizi Azərbaycan yığma komandasında məşqçi kimi çalışmağa dəvət etsələr, razılaşardınızmı?***

- Məşqçilik tarixi çox ixtisaslıdır və mənim bu sahədə daha geniş məlumatım var. Təbii ki, futbolla bağlı istənilən istiqamətdə həm məşqçi, həm də lider ola bilərdim. Futbol mənim üçün çox maraqlı olduğu üçün işlə fəal məşğul olmağıma baxmayaraq, onu daim izləyirəm. Bəlkə də həm özünü reallaşdırmaq, həm də bir şəkildə bilik və təcrübəmi hansısa strukturun xeyrinə tətbiq etmək imkanı verəcək maraqlı təkliflər alsam, bu təklifləri məmnuniyyətlə qəbul edərəm.

***Tərcümə - Elçin Bayramlı***

## “Nar”ın baş sponsorluğu ilə Azərbaycan çempionu titulu uğrunda yarış başlayır



“Nar”ın baş sponsorluğu ilə ölkənin ən baxımlı intellektual yarışı olan ”Breyn Rinq”in 18-ci mövsümü start götürür. Bilik yarışının builki mövsümündə respublikanın 6 bölgəsi və 6 ali məktəbini təmsil edən 16 seçilmiş komanda olimpiya sistemi üzrə ”Bilik” kuboku uğrunda mübarizə aparacaq. ”Bilik” kubokunu qazanan komanda isə ötən mövsüm qalib olmuş ”Nar” komandası ilə ”Breyn Rinq 2021” Azərbaycan çempionu titulu uğrunda mübarizə aparacaq. Oktyabrın 1-dən start götürəcək yarış hər həftənin cümə günü saat 19:20-də İctimai Televiziyada yayımlanacaq. Qeyd edək ki, mobil operator builki mövsümdə də ”Nar” və işğaldan azad edilmiş bölgələrin intellektuallarının birləşdiyi ”Qarabağ” komandalarını dəstəkləyəcək.

Televiziya tamaşaçılarını da yarışa cəlb etmək məqsədilə, bu il də ”Nar”ın ”Twitter” səhifəsində yarış keçiriləcək. Hər zaman gənclərin intellektual inkişafına xüsusi önəm verən ”Nar”, artıq 9 ildir ki, ”Breyn Rinq” intellektual yarışının baş sponsorudur. ”Nar”ın digər layihələri haqqında ətraflı nar.az səhifəsində tanış olmaq olar.

”Azerfon” şirkəti (”Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. ”Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. ”Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. ”Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 91%-ni əhatə edir və 8780-dan artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən ”HD-Voice” (High Definition Voice) xidmətini təqdim edib.

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

2 oktyabr

Son səhifə

# "Qalatasaray" bir xal qazanıb lider oldu, "Fənərbaxça" uduzdu



Futbol üzrə UEFA Avropa Liqasının qrup mərhələsində 2-ci turun oyunlarına start verilib. Milli komandamızın futbolçusu Mahir Emrelinin çıxış etdiyi "Legiya" Polşada "Lester"i (İngiltərə) qəbul edib və 1:0 hesabı ilə qalib gəlib. Yeganə qolu M.Emreli vurub.

Türkiyənin turnirdəki təmsilçilərindən "Qalatasaray" Fransada "Marsel"lə qarşılaşıb və qolsuz bərabərə qalıb. Bu bir xal sayəsində İstanbul təmsilçi qrupdakı liderliyini möhkəmləndirib. Digər İstanbul təmsilçisi olan "Fənərbaxça" isə öz doğma meydanında Yunanıstan "Olimpiakos"una böyük hesabla uduzub - 0:3

# Napoleonun öldüyü otağın açarı 112 min ABŞ dollarına satıldı



*Fransa imperatoru Napoleon Bonapartın Müqəddəs Yelena adasında sürgündə olduğu zaman öldüyü otağın açarı "Sotheby's" ticarət şəbəkəsində təxminən 112 min ABŞ dollarına satılıb. "Report" xəbər verir ki, bu barədə hərrac evinin saytında bildirilib.*

Açarla birlikdə "Lonqvuddə Napoleonun öldüyü və mənim qaladan şəxsən çıxardığım açar. Ç.R. Foks, Müqəddəs Yelena, 6 sentyabr, 1822-ci il" yazısının olduğu zərf də satılıb. Açar Şotlandiyada evlərdən birində çemodanda aşkarlanıb. Britaniya KİV-in məlumatına görə, açarın məxsus olduğu ailə onun mövcudluğu haqqında bilib, amma onun yerini tapa bilməyib.

Daha əvvəl açarın sahibi britaniyalı hərbçi Çarlz Riçard Foksun Napoleona pərəstiş edən anası olub. Açarı Şotlandiyaya məhz hərbçi gətirib və anasına hədiyyə edib. Açarın ilkin qiyməti 4-7 min ABŞ dolları təşkil edib, beləliklə o, demək olar, 16 dəfə baha qiymətə satılıb.

Qeyd edək ki, Napoleon Bonapart 5 may 1821-ci ildə Müqəddəs Yelena adasında ölüb. O, həyatının son illərini Britaniyanın Atlantika adasında keçirib.

# DİQQƏT: Xəmir yeməkləri insanlara ziyandır?

## QIDA UZRƏ EKSPERT AÇIQLADI



***"Xəmir yeməklərinin insan orqanizminə ziyanı var. Məsələn, xəngəl. Xəngəl əgər rafinə olunmuş undan hazırlanırsa və biz onu istehlak ediriksə, həddindən artıq gündə 2-3 dəfə və yaxud bir oturuma 2-3 insanın payını yeyiriksə, artıq ziyandan danışmağa dəyər. Bir də baxır bu xəmir xörəklərini kim yeyir.***

Şəkər xəstəsi yeyir, qan təzyiqi olan yeyir və yaxud sağlam adam yeyir? Bu hər bir şəxsə istər sağlam qidalanmada, istər müalicədə eyni yanaşmaq olmaz. İndividual yanaşmaq lazımdır. İnsanın qaraciyərində piylənmə dərəcəsi nə qədərdir, neçə faizdir, insanın mədəaltı vəzində xroniki pankreatit var ya yoxdu və yaxud ürək qan damar sistemi hansı vəziyyətdədir, şəkəri var ya yoxdur və yaxud bu adam sağlamdır, idmançıdır?". Bu sözləri SİA-ya açıqlamasında qida üzrə ekspert, baş mütəxəssis Ağa Salamov deyib. Onun sözlərinə görə, xəmir xörəkləri hərəyə bir cür təsir edə bilər: "Məsələn, şəkər xəstələri və digər sadaladığım xəstəlikləri olan insanlara çox pis təsir edə bilər. Amma sağlam adama onun heç bir təsiri olmaz. Amma, bu o demək deyil ki, sağlam adam da oturub onu 500 qram istehlak etməlidir. Yəni, sağlam adam normal şəkildə qida rasionunu aşmayaraq, bir pors yeni, onun yeyəcəyi qədər yeməlidir. 200-250 qramı keçməmək şərtilə, üstündə qiyməsini, onun zülalını, karbohidratlarını, kolori dəyəri yüksək olduğunu da nəzərə alsaq yəni, 200-250 qram istehlak edə bilər".



Ağa Salamov sözlərinə belə davam edib: "Bəzi mütəxəssislər çıxıb deyirlər ki, xəngəl, xaş, düşbərə, gürzə yeməyin, bunu yeməyin, onu yeməyin. Siz elə camaatı acından qırırsınız. Onlar da haqlı olaraq deyir ki, acından öləkk, bəs nə yeyək? Bunu deyəndə bunun elmi izahını ortaya qoymaq lazımdır. Əgər qida elmindən anlayışınız yoxdursa, siz bu təhsili almamısızsa ümumiyyətlə, qida elminin təhsilini almayan mütəxəssis çıxıb insanlara qidada "nəyi ye nəyi yemə" deyə bilməz. Onu ancaq həkim və qida mühəndisləri deyə bilər. O da qida kimyasını keçmiş, mikrobiologiyanı bilən, az-çox həkimliyə yaxın olan insanlar. Yəni, hansı ki, qida kimyasını həkim də, mühəndislər də, qida texnoloqları da keçir. Bu adamlar məsləhət görə bilər. Nutroloqlar deyə bilər. Dietoloq elmi yoxdur, nutrologiya var. Oxumuş, ali təhsilli və qida elmindən anlayışı olan, sırf qidanı bilən nutroloqlar bunu deyə bilər ki, bunu ye, bunu yemə. Lakin, Azərbaycanda barmaqla göstəriləcək qədər nutroloq var".

"Xəngəl, düşbərə bizim milli mətbəximizdir. Biz bunu nəyə görə yeməli deyilik?! Xəngəlin növləri var ki, qış gələndə hərə öz menyusuna, bölgəsinə uyğun balqabaqla, qiymə ilə, süzmə ilə, quzu əti ilə və s. seçim edir. Azərbaycanda xəngəl növləri çoxdur. Bu da onu göstərir ki, bizim dədə-babalarımız xəngəl yeyib ölməyiblər, əksinə 90 yaş yaşayıblar.

Xəngəlin hazırlanma texnologiyasından danışdıqda, məsələn, xəmir xörəklərinin xammalı xəmirdir, xəmirin hazırlanma texnologiyası da öz sözünü deyir. Yəni, sağlam xammalla hazırlanmalıdır, desək daha doğru olar. Yəni, biz əla növ undan hazırlasaq, bəli, xəstəyə pis təsir edəcək, amma rafinə olunmuş, kəpək qismi, rüşeym qismi ayrılmış bir undan xəngəl hazırlasaq, orda heç bir vitamin qalmır, boş karbohidrat qalır. Bu əlbəttə ki, xəstələrə zərərli olacaq yəni, ürək xəstəsinə, qaraciyər xəstəsinə, şəkər xəstəsinə və sair. Sağlam adam da çox yeyərsə yavaş-yavaş ona da ağır təsir göstərəcək, qaraciyərində yüklənmə olacaq".

**Ayşən Vəli**

# Koronavirusa yoluxan pişikləri evtanaziya etdilər

***Çinin şimal-şərqindəki Heylonjan vilayətində koronavirusa yoluxan üç pişik evtanaziya edilib. Bu barədə "Beijing News" məlumat yayıb. Bildirilib ki, evtanaziya zamanı pişiklərin sahibinin etirazlarına məhəl qoyulmayıb.***

Qeyd olunub ki, pişiklərin sahibi sosial şəbəkədə heyvanlara PCR testi tətbiq edildiyini və cavabların müsbət olduğunu yazıb. O bildirib ki, heyvanlar müalicə olunduğu zooklinikada ondan icazə almadan evtanaziya edilib.



Qeyd edək ki, Çində infeksiyaya yoluxan heyvanların öldürülməsinə icazə var./"Qafqazinfo"

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600